## "İYİ Partiya"nın binasına silahlı hücumu törədən şəxs tutulub




**"İYİ Partiya"nın binasına edilən hücum təxribatdır. Bunu Türkiyənin daxili işlər naziri Süleyman Soylu deyib. Nazir qeyd edib ki, artıq silahlı hücumu törədən şəxs saxlanılıb:**

"Baş vermiş hadisənin əsl səbəbini müəyyən etmədən onu düşmənçilik kimi qələmə vermək bu iyrənc hadisədən siyasi məqsədləri üçün fürsət kimi istifadə etməkdir". (apa)

*Xatırladaq ki, dünən Türkiyənin İstanbul şəhərində "İYİ Partiya"nın binasına silahlı hücum olub.*

*Binanın pəncərəsinə iki güllə dəyib. Polis hadisə yerində araşdırmaları davam etdirir.*

## NATO əməkdaşlarının "TikTok" yükləməsi qadağan edilib




**NATO öz əməkdaşlarına Çin sosial şəbəkə tətbiqi "TikTok"u xidməti cihazlara yükləməyi qadağan edib.**

APA-nın xəbərinə görə, bu barədə CNN məlumat yayıb.

Televiziyanın məlumatına görə, NATO rəhbərliyi öz əməkdaşlarına bildiriş göndərib.

Bununla da qadağa rəsmiləşib. Əslində daxili texniki məhdudiyyətlər səbəbindən əvvəllər də "TikTok" tətbiqi alyansın cihazlarında istifadə oluna bilməyib.



## İrana gedənlərin sayı 15,5 faiz azalıb

### Xarici ölkələrə səfər edən Azərbaycan vətəndaşlarının sayı açıqlanıb

**2022-ci ilin yanvar-fevral ayları ilə müqayisədə xarici ölkələrə gedən Azərbaycan Respublikası vətəndaşlarının ümumi sayı 18,3 faiz artaraq 218,0 min nəfər olub.**

Bu barədə Trend-ə dövlət Statistika Komitəsindən məlumat verilib.

Gürcüstana gedən Azərbaycan Respublikası vətəndaşlarının sayı 1,5 dəfə, Türkiyəyə gedənlərin sayı 15,9 faiz, Rusiya Federasiyasına gedənlərin sayı 8,4 faiz artıb, İrana gedənlərin sayı isə 15,5 faiz azalıb. Ölkə vətəndaşlarının 39,7 faizi Türkiyəyə, 22,8 faizi Rusiya Federasiyasına, 9,9 faizi Gürcüstana, 8,4 faizi İrana, 19,2 faizi digər ölkələrə səfər edib. Gedənlərin 70,0 faizini kişilər, 30,0 faizini qadınlar təşkil edib.

*2023-cü ilin yanvar-fevral aylarında xarici ölkələrə səfər edən Azərbaycan Respublikası vətəndaşlarının 29,7 faizi dəmir yolu və avtomobil, 67,8 faizi hava, 2,5 faizi isə dəniz nəqliyyatından istifadə edib.*


№ 55 (5816) 2023-cü il

Qiymәti 40 qәpik

# ŞƏRQ

Günəş Şərqdən doğur!

www.sherg.az 1 aprel 2023-cü il (şənbə)




## Formula 1 Azərbaycan Qran-Prisini yeni formatda keçirmək istəyir

**2023-cü il mövsümündə Bakı, Şpilberq, Spa, Qətər, Ostin və San-Pauloda cümə təsnifatı və şənbə sprinti formatında altı mərhələnin keçirilməsi planlaşdırılır. Formula 1-in "Liberti Media"dan olan sahibləri komandalara yürüş uik-endinin sprintlə yeni formatını təklif ediblər.**

"F1News" saytı xəbər verir ki, yeni formatda iki ayrı-ayrı təsnifatın keçirilməsi nəzərdə tutulub. Cümə günündə əsas bazar günü yürüşünün start mövqeyinin müəyyən ediləcəyi bir məşq və təsnifat planlaşdırılır. Bu təsnifatın qalibi poulun sahibi hesab olunacaq, nəticələr isə şənbə sprintinin startında maşınların düzülüşündə nəzərə alınmayacaq.

## Şuşada qarlı hava

### Eko-fəallar aksiyanı davam etdirir



**Rusiya sülhməramlılarının müvəqqəti nəzarətində olan ərazilərdə faydalı qazıntı yataqlarının, xüsusilə "Qızılbulaq" qızıl və "Dəmirli" mis-molibden yataqlarının qanunsuz istismarına etiraz olaraq eko-fəallar və QHT təmsilçilərinin Şuşa şəhərində - Laçın-Xankəndi yolunda aksiyası davam edir.**

Hazırda hava şəraitinin qarlı olmasına baxmayaraq, eko-fəallar aksiyanı davam etdirir. Aksiyaçılar şüarlar səsləndirərək dünya ictimaiyyətinə çağırış edir.

*Qeyd edək ki, aksiya ötən il dekabrın 12-dən başlayıb, 110 gündür davam edir.*

# Fazil Mustafaya qarşı terror aktında İran izi var

### Azərbaycan XİN Nasir Kənaninin iddialarına cavab verib



**"Fazil Mustafaya qarşı terror aktının istintaqının ilkin izləri İrana dəlalət edir".**

Bu barədə Azərbaycan Respublikası Xarici İşlər Nazirliyinin mətbuat katibi Ayxan Hacızadə 31 mart tarixində İranın Xarici İşlər Nazirliyinin mətbuat katibi Nasir Kənani tərəfindən səslənmiş iddialara cavab verərkən bildirib.

XİN sözçüsü deyib ki, Azərbaycan öz ərazisindən üçüncü dövlətlərə qarşı istifadəyə heç zaman imkan verməyib: "Bunun əksinə, son zamanlar İran ərazisindən Azərbaycana qarşı təhdidlər səsləndirilir və təxribatlara yol verilir.

(səh.3)

# Yeni qurum qarşısındakı üç ali məqsədə çatmalıdır

### Su ehtiyatlarından səmərəli istifadə edilməsə, həyatın bütün sahələri fəlakətə düçar olar



**Fövqəladə Hallar Nazirliyinin Su Ehtiyatları Dövlət Agentliyinin əsasında Azərbaycan Dövlət Su Ehtiyatları Agentliyi yaradılıb.**

Bu, Prezident İlham Əliyevin imzaladığı "Su ehtiyatları, su təsərrüfatı və meliorasiya sahələrində idarəetmənin təkmilləşdirilməsi haqqında" fərmanda yer alıb.

"Azərsu" Açıq Səhmdar Cəmiyyəti və Azərbaycan Meliorasiya və Su Təsərrüfatı Açıq Səhmdar Cəmiyyəti əmlakları ilə birlikdə Agentliyin tabeliyinə verilib.

(səh.3)

## Fazil Mustafa palatada gəzişir

### Millət vəkilinin ümumi vəziyyəti yaxşıdır



**"Böyük Qutuluş Partiyasının başqanı, millət vəkili Fazil Mustafanın müalicəsi tibb müəssisəsində davam edir".**

*Bu sözləri "Şərq"ə açıqlamasında millət vəkili Fazil Mustafanın köməkçisi Əjdər Əliyev deyib. Ə.Əliyev bildirib ki, Fazil Mustafa ilə telefon əlaqəsi saxlayıb:* "Müalicəsi ilə məşğul olan həkimlərdən də aldığımız məlumata əsasən, millət vəkilinin ümumi vəziyyəti yaxşıdır. Sağalma prosesi aldığı yaralara müvafiq olaraq normal səviyyədə davam edir. Ayağındakı yara yaxşılaşdığından yerləşdiyi palatada gəzişir və normal qaydada qida qəbul edir. Müalicəsi tamamlandıqdan sonra yəqin ki, inşallah, yaxın vaxtlarda xəstəxanadan evə buraxılacaq. Əlbəttə ki, bu qərarı Fazil bəyin müalicəsi ilə məşğul olan həkimlər verəcək".

**İsmayıl**

## Mehriban Zəkinin səhhəti yaxşılaşıb, evə buraxılacaq



**Abşeron rayonu Saray qəsəbəsində baş vermiş yol qəzasında xəsarət alan Xalq artisti Mehriban Zəkinin səhhəti ilə bağlı son vəziyyət açıqlanıb.**

Bu barədə APA-ya Xalq artistinin həmkarı Turan Uğur məlumat verib.

Onun sözlərinə görə, aktrisanın vəziyyəti yaxşıdır: "Səhhəti normallaşıb, ya sabah, ya da bazar günü evə buraxılması gözlənilir".

*Xatırladaq ki, 22 mart tarixində Abşeron rayonu Saray qəsəbəsində baş vermiş qəzada Əməkdar mədəniyyət işçisi Oqtay Əliyev vəfat etmiş, həyat yoldaşı Əməkdar artist Dilarə Əliyeva və Xalq artisti Mehriban Zəki müxtəlif bədən xəsarətləri alaraq, xəstəxanaya yerləşdirilmişdi.*

## Xocavənddə döyüş sursatları tapılıb



**Xocavənd Rayon Polis Şöbəsinin əməkdaşları tərəfindən işğaldan azad edilmiş ərazilərdəki tərk edilmiş hərbi mövqelərdən silah-sursatın və partlayıcı vasitələrin toplanması istiqamətində tədbirlər davam etdirilir.**

Bu barədə DİN-in Mətbuat xidmətinin Bərdə regional qrupundan məlumat verilib. Xəbərə görə, Xocavənd RPŞ-nin əməkdaşlarının rayon ərazisində keçirdiyi tədbirlər nəticəsində 2 pulemyot, 1 avtomat, 1 snayper tüfəngi, 1 ov tüfəngi, 2 qumbara və digər döyüş sursatları götürülərək aidiyyəti üzrə təhvil verilib.



## İranın casus şəbəkəsi son nəfərinə kimi zərərsizləşdirilməlidir

Ceyhun Məmmədov: "Əgər şəbəkəni vaxtında təmizləməsək, sonrakı dövrdə bunun ağır fəsadlarını yaşaya bilərik"

(səh.2)



## "Tahir Kərimli, növbəti hədəf sənsən"

Sosial şəbəkələri izləyən terror qruplaşmasının üzvlərindən növbəti təhdid gəldi

(səh.4)



# Formula 1 Azərbaycan Qran-Prisini yeni formatda keçirmək istəyir

**2023-cü il mövsümündə Bakı, Şpilberq, Spa, Qətər, Ostin və San-Pauloda cümə təsnifatı və şənbə sprinti formatında altı mərhələnin keçirilməsi planlaşdırılır. Formula 1-in "Liberti Media"dan olan sahibləri komandalara yürüş uik-endinin sprintlə yeni formatını təklif ediblər.**

"F1News" saytı xəbər verir ki, yeni formatda iki ayrı-ayrı təsnifatın keçirilməsi nəzərdə tutulub. Cümə günündə əsas bazar günü yürüşünün start mövqeyinin müəyyən ediləcəyi bir məşq və təsnifat planlaşdırılır. Bu təsnifatın qalibi poulun sahibi hesab olunacaq, nəticələr isə şənbə sprintinin startında maşınların düzülüşündə nəzərə alınmayacaq.

Şənbə günü məşqini ikinci təsnifat əvəz edəcək. Bu təsnifatda sprintdə start mövqeləri və sprintin özü müəyyən ediləcək.

Formula 1 aprelin sonunda Azərbaycan Qran-Prisini yeni formatda keçirmək istəyir. Bunun üçün iki həftədən sonra reqlamentə müvafiq dəyişikliklər edilməsi üzrə elektron səsverməsinin keçirilməsi planlaşdırılır. "Liberty Media" artıq komandaların dəstəyini alıb, lakin "Pirelli" ilə potensial problemlər meydana çıxa bilər.

İtaliyanın şin istehsalçısı artıq Bakıya lazım olan miqdarda şin komplektləri göndərib və əlavə rezinlərin hazırlanması və göndərilməsindən imtina edir. Formula 1-də bu problemi həll etmək üçün hər bir yürüşçünün standart olaraq 12 şin komplekti ilə təmin edilməsi məqsədilə bir sıra variantlar təklif edirlər.

Variantlardan biri hər bir pilotun yalnız bir sürətli dairə qət edə biləcəyi şənbə təsnifatının başqa formatıdır. Digər variantda cümə təsnifatının hər üç sessiyasından birində məsafənin iki dəfə azaldılması təklif edilir. Daha bir seçim pilotun hər bir sessiyada istifadə edə biləcəyi komplektlərin sayının məhdudlaşdırılmasıdır.

Hələ ki, yekun qərar qəbul edilməyib və danışıqlar davam edir.

# Bu yol 4 yaşayış məntəqəsini birləşdirəcək

## Yolun tikintisinə 6,7 milyon manat ayrılıb



**Prezident İlham Əliyevə Zaqatala rayonunun Yevlax-Zaqatala-Gürcüstanla dövlət sərhədi (150 km)-Əliabad-Bəhmətli-Kürdəmir-Lahıc avtomobil yolunun tikintisi ilə bağlı tədbirlər haqqında sərəncam imzalayıb.**

Sərəncama əsasən, on doqquz min nəfər əhalinin yaşadığı 4 yaşayış məntəqəsini birləşdirən Yevlax-Zaqatala-Gürcüstanla dövlət sərhədi (150 km)-Əliabad-Bəhmətli-Kürdəmir-Lahıc avtomobil yolunun tikintisi məqsədilə "Azərbaycan Respublikasının 2023-cü il dövlət büdcəsində dövlət əsaslı vəsait qoyuluşu (investisiya xərcləri) üçün nəzərdə tutulan vəsaitin bölgüsü"nün 1.31.10-cu yarımbəndinə uyğun olaraq, Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyinə 6,7 milyon (altı milyon yeddi yüz min) manat ayrılıb.

# 31 Mart soyqırımını unutmamalıyıq

## Azərbaycan Türk Ocağı bəyanat yayıb

**"Azərbaycan tarixində erməni - bolşevik hərbi birləşmələrinin Azərbaycan türklərinə, müsəlman əhaliyə qarşı törətdikləri 1918-ci ilin qanlı 31 Mart soyqırımı insan itkilərinin, dağıntıların miqyasına görə ən böyük faciələrdən biridir. Köhnə təqvimlə martın 18-i, yeni vaxtla martın 31-dən aprelin 2 -dək erməni silahlılarının, "Daşnaksütyun" Partiyasının və bolşeviklərin Bakıda milli zəmində törətdikləri soyqırım aktı Şura hakimiyyəti qurmaq adı altında Azərbaycanın bir cox bölgələrində davam etdirilib".**

Bu haqda Azərbaycan Türk Ocağının bəyanatında bildirilir. Bəyanatda daha sonra bildirilir: "Şamaxıda, Qubada, Salyanda, Neftcalada və digər bölgələrdə planlı şəkildə kütləvi qırğınlar törədilib, bölgəni türksüzləşdirmək siyasəti yeridilib. Özünü Bakı Komissarları Sovetinin sədri elan edən S.Şaumyan və tərəfdarları, Erməni Milli Şurası, "Daşnaksütyun" Partiyası bu qırğın baş verməyəcəyi təqdirdə müsavatçıların Azərbaycan muxtariyyatını elan edəcəklərini qeyd edərək sinfi mübarizə adı altında yerli türk-müsəlman xalqlarını soyqırıma məruz qoyublar. Bakıda müsəlmanlar yaşayan məhəllələr, evlər güllələbaran edilib, ahıllar, körpələr, qadınlar qılıncdan kecirilib və qətlə yetirilib. Məscidlər dağıdılıb, qəzet redaksiyaları yandırılıb, ziyalılar öncədən tərtib edilən siyahılarla həbs edilərək güllələnib, neft quyularına, Xəzər dənizinə atılıb. 3 gün davam edən bu qırğınlar Bakı və ətraf bölgələrin etnik tərkibinin ruslar, ermənilər və digər kicik xalqların xeyrinə dəyişməyə hesablanıb. Bakıda 18 min, Şamaxıda 8 min, Qubada 4 mindən cox insan qətlə yetirilib.

Erməni və rusların törətdikləri bu soyqırım aktları Şərqi Anadoluda da eyni vəhşi üsullarla davam etdirilib. Qars, Ərzurum, İğdır və digər ərazilərdə müsəlman və türk olduğu ücün insanlar öldürülüb, kəndlər, məhəllələr dağıdılıb, qətlə yetirilənlər su quyularına atılıb, toplu məzarlıqlar yaradılıb.

Azərbaycan Türk Ocağı 31 Mart soyqırımı qurbanlarının əziz ruhu qarşısında baş əyir, İstiqlal şəhidlərinə Tanrıdan rəhmət diləyir, xalqımızı başımıza gətirilən bu faciələri unutmamağa cağırır".

# Feysbukda Makronu "təhqir edib"

## Fransız qadın 12 min avro cərimə ödəyə bilər

**Fransanın şimalından olan qadın özünün feysbuk sosial şəbəkəsindəki səhifəsində dövlət başçısı Emmanuel Makronu təhqir etdiyinə görə məhkəməyə verilib.**

Bu barədə fransız KİV-ləri prokurorluğa istinadla məlumat yayıb.

Fransız qadın iyunda olacaq məhkəmə prosesində təqsirli bilindiyi halda həbs cəzası ilə deyil, 12 min avro məbləğində cərimə ilə üzləşə bilər. O sosial şəbəkədəki statusunda yazıb: "13:00...biz həmişə televizorda bu natəmizliyi görürük".

Əlli yaşı olan fransız qadın 2018-2019-cu illərdə "sarı jiletlər" etiraz aksiyalarının iştirakçısı olub. Bu etirazlar Makronun birinci prezidentliyi dövründə onun nüfuzuna ciddi zərbə vurub.

Prokurorun sözlərinə görə, qadın




"respublika prezidentinin təhqir edilməsində" ittiham olunur və iyunun 20-də Sent-Omerdə məhkəmə qarşısına çıxarılacaq.

Qadın ittiham barədə ilk xəbəri yayan "La Voix du Nord" qəzetinə müsahibəsində bildirib ki, "onlar məni nümunə kimi istifadə etmək istəyirlər". Bu nəşrin Valeri adı ilə təqdim etdiyi qadın əlavə edib ki, cümə günü qapının zənginin çalınması və onu həbs etmək üçün polisin gəlməsindən şoka düşüb. O deyib: "Mən onlardan soruşdum, bu, bir zarafatdır? Mən heç vaxt həbsdə olmamışam. Mən cəmiyyətin bir nömrəli düşməni deyiləm". (azərtac)

Pensiya islahatı əleyhinə aylardır ki, davam edən etiraz dalğası Fransada sosial gərginliyin artmasına səbəb olub. Makron və onun hökuməti güzəştə getməkdən imtina edirlər. Çərşənbə axşamı polislə etirazçılar arasında yeni toqquşmalar baş verib, həmkarlar ittifaqları aprelin 6-da yeni tətil və etirazların olacağını bəyan ediblər.

# Tarix boyu ermənilərin dövləti olmayıb

## Əziz Ələkbərli: "Qərbi Azərbaycan məsələsi 60 milyonluq dünya azərbaycanlılarının məsələsidir"




**Ulu Öndər Heydər Əliyev 1998-ci ildə azərbaycanlıların soyqırımı haqqında tarixi Fərmanı imzalamaqla son 200 il ərzində xalqımıza qarşı törədilmiş soyqırımlarına, etnik təmizlənmələrə, deportasiyalara Azərbaycan tarixində ilk dəfə olaraq tarixi-siyasi qiymət vermiş oldu.**

31 Mart əslində rəmzi bir rəqəmdir. Bakıda ermənilərin soydaşlarımıza qarşı mart ayının sonlarında törətdiyi cinayətlərlə bağlı tarixi bir rəqəmdir. Bu gün son 200 ildə azərbaycanlıların yaşadığı bütün coğrafiyalarda ermənilər tərəfindən xalqımıza qarşı törədilmiş soyqırımlarının hamısının anım günüdür.

Bunu Qubada keçirilən "Etnik təmizləmə və soyqırımı cinayətlərinin hüquqi aspektləri: tarixi faktlar kontekstində" mövzusunda konfransda çıxışı zamanı Qərbi Azərbaycan icmasının sədri Əziz Ələkbərli bildirib.

İcma sədri qeyd edib ki, sovet dönəmində xalqımızın başına gətirilən faciələrin əsl mahiyyətini lazımi dərəcədə öyrənə və dünyaya çatdıra bilməmişik. Bunun da obyektiv səbəbləri var: "Xüsusilə Qərbi Azərbaycan ərazisində soydaşlarımıza qarşı törədilmiş cinayətlər barədə gənclərimiz kifayət qədər məlumat ala bilməyiblər. Bilirsiniz ki, bütün bu faciələrin hamısı çar Rusiyası tərəfindən bu bölgənin işğalı və qonşu dövlətlərdən, xüsusilə ozamankı İran və Osmanlı dövlətləri ərazisindən ermənilərin Cənubi Qafqaza köçürülməsi ilə başlayır. Ermənilər bura gələndən bölgəyə bəla, separatçılıq, münaqişə gəlib. Ermənilər köçürüldükləri ərazilərdə XIX əsr boyu öz havadarlarına arxalanaraq, soydaşlarımıza qarşı etnik təmizləmə siyasəti yeridiblər. Bölgəyə gəlmə olduqlarını gizlətmək, dünyaya öz yalanlarını, saxtakarlıqlarını sırımaq üçün həmin ərazilərdə nəinki etnik təmizləmə siyasəti həyata keçiriblər, eyni zamanda həmin ərazilərdəki bütün Azərbaycan izlərini, xalqımızın min illər boyu yaratmış olduğu bütün mənəvi, mədəni irsi Yer üzündən silməyə çalışıblar. Xüsusilə, 1890-cı ildə Tiflisdə "Daşnaksütyun" Partiyası yaradılandan sonra artıq ermənilər açıq şəkildə silahlanmaya keçdilər ki, bunun da nəticəsində XX əsrin əvvəllərində, 1905-ci ildə ilk soyqırımı həyata keçirildi".

"Ermənistan Qərbi Azərbaycan ərazisi və Azərbaycanın müxtəlif tarixi torpaqları əsasında formalaşmış qondarma bir dövlətdir. Yəni tarix boyu ermənilərin dövləti olmayıb. Zəngəzur mahalı Qarabağ xanlığının ərazisi olub. Dərələyəz mahalı Naxçıvan xanlığının ərazisi olub. Bu gün Qərbi Azərbaycan məsələsi təkcə Qərbi azərbaycanlıların məsələsi deyil. Necə ki, Qarabağ məsələsi təkcə qarabağlıların məsələsi deyildi. Bu məsələ bütövlükdə 60 milyonluq dünya azərbaycanlılarının məsələsidir", - deyə Əziz Ələkbərli söyləyib.

**Azərbaycanda İran casus şəbəkələrinin ifşa olunması ilə bağlı əməliyyatlar davam edir.**
**Hüquq-mühafizə orqanlarının keçirdikləri əməliyyat nəticəsində molla rejiminə xidmət edən daha bir neçə agent saxlanılıb. Onların arasında "höccətül-islam" deyilən Siyasət Bağırov da var.**




# İranın casus şəbəkəsi son nəfərinə kimi zərərsizləşdirilməlidir

## Ceyhun Məmmədov: "Əgər şəbəkəni vaxtında təmizləməsək, sonrakı dövrdə bunun ağır fəsadlarını yaşaya bilərik"

İstintaq zamanı ölkəmizdə kök salmış İranın casus şəbəkələrinin xüsusi xidmət orqanlarının tapşırığı əsasında fəaliyyət göstərdiyi aşkarlanıb. Məlum olub ki, agentlər bir neçə istiqamətdə Azərbaycana qarşı təxribat fəaliyyətlərini icra ediblər. Öz əhalisini acyalavac saxlayan fars-molla rejimi Azərbaycanda casus şəbəkələrini genişləndirmək məqsədilə bu istiqamətdə külli miqdarda vəsait xərcləyib. Məqsəd agent şəbəkəsi vasitəsilə öz çirkin niyyətlərini həyata keçirmək, ölkədə qarışıqlıq, dini zəmində münaqişələr yaratmaq, hətta terror törətməklə Azərbaycana təzyiq göstərməkdən ibarətdir. Hətta Azərbaycanda şəriət qanunları ilə idarə olunan "Kərimə dövləti" yaratmaq niyyətləri də olub. Birbaşa İranın xüsusi xidmət orqanlarının nəzarəti altında olan casus şəbəkəsinin formalaşmasında "din" əsas alət olsa da, maliyyə və şantaj kimi vasitələrdən də istifadə olunur. Prossesin vahid mərkəzdən idarə olunması üçün hətta "Azərbaycan masası" adlı xüsusi bölmə də yaradılmışdı. Nəticədə "dini təhsil" üçün İrana gedən gənclərimizin beyinlərinin yuyulması, məscid və dini ocaqlarımızda mollaların apardığı təbliğat nəticəsində İran ölkəmizdə geniş casus şəbəkəsi formalaşdırmağa nail olub. Bura İranın narkotik qaçaqmalçılığında istifadə olunan və sonradan şantaj edilən vətəndaşlarımızı, maliyyə problemi ucbatından molla rejiminə casusluq etməyə məcbur olanları da əlavə etmək olar. İranın Azərbaycanda "təsir agentləri" olaraq fəaliyyət göstərənlər ayətullahlardan "dərslər alıblar", Qum və Məşhəd şəhərində yetişdiriliblər. Bu şəxslər Azərbaycana qayıdandan sonra İranın dini-siyasi təbliğatını aparır və insanları dövlətin qanunları ilə yox, İran ayətullahlarının fətvaları ilə yaşamağa sövq edirdi. Yəni İran daim Azərbaycan əhalisinin dini inanclarını istismar edib, icmaları siyasi qruplara çevirməklə öz maraqları üçün istifadə etməyə səy göstərib.

**Millət vəkili, ilahiyyat üzrə fəlsəfə doktoru Ceyhun Məmmədov "Şərq"ə açıqlamasında bildirib ki, İranın Azərbaycandakı casus şəbəkəsinin tamamilə zərərsizləşdirilməsi çox önəmlidir. Deputatın sözlərinə görə, casus şəbəkəsinin Azərbaycanla bağlı çox ciddi planları, hədəfləri var:** "Ona görə də bütün bu cür cəhdlərin və şəbəkələrin qarşısını almalıyıq. Nəzərə almalıyıq ki, agent şəbəkələrinin yekun hədəfi Azərbaycanı dağıtmaqda, ölkəmizdə İranın istədiyi "şəriət dövləti" qurmaq və bütövlükdə Azərbaycanın müstəqilliyini məhv etməkdir. O baxımdan çox ciddi addımlar atılmalıdır. Casus şəbəkəsi son nəfərinə kimi zərərsizləşdirilməlidir. Əlbəttə, bu, çox ağır bir prosesdir, amma buna nail olmalıyıq. Əgər casus şəbəkəsini vaxtında təmizləməsək, sonrakı dövrdə bunun ağır fəsadlarını yaşaya bilərik. Bu işi davamlı aparmalıyıq".

*C.Məmmədov vurğulayıb ki, casus şəbəkəsinin formalaşmasında yeganə faktor din və ya məzhəb deyil:* "Təbii ki, ən birinci amil məzhəbdir, ancaq bundan əlavə maliyyə məsələsi, xaricdən gələn qrantlar da böyük rol oynayır. Bütövlükdə formalaşmış, şəbəkələşmiş qruplardan və onlara ayrılan ciddi maliyyədən söhbət gedir. O baxımdan casusların maliyyə kanalları aşkarlanmalı, agentura şəbəkəsinə "töhfə" verən şəxslər zərərsizləşdirilməlidir. Casus şəbəkəsinə qarşı mübarizə intensiv hal almalıdır. Nəzərə alaq ki, həmin şəbəkə sosial platformalarda da fəallıq nümayiş etdirirlər. Onların da qarşısını almaq lazımdır".

**İsmayıl Qocayev**



# Fazil Mustafaya qarşı terror aktında İran izi var

## Azərbaycan XİN Nasir Kənaninin iddialarına cavab verib

**”Fazil Mustafaya qarşı terror aktının istintaqının ilkin izləri İrana dəlalət edir”. Bu barədə Azərbaycan Respublikası Xarici İşlər Nazirliyinin mətbuat katibi Ayxan Hacızadə 31 mart tarixində İranın Xarici İşlər Nazirliyin mətbuat katibi Nasir Kənani tərəfindən səslənmiş iddialara cavab verərkən bildirib.**

XİN sözçüsü deyib ki, Azərbaycan öz ərazisindən üçüncü dövlətlərə qarşı istifadəyə heç zaman imkan verməyib: ”Bunun əksinə, son zamanlar İran ərazisindən Azərbaycana qarşı təhdidlər səsləndirilir və təxribatlara yol verilir. Bunlara misal olaraq, Azərbaycanın sərhədləri boyu İran tərəfindən hərbi təlimlərin keçirilməsini, sərhəd üzərindən hərbi uçuşların həyata keçirilməsini, İranın vəzifəli şəxsləri tərəfindən anti-Azərbaycan bəyanatlarının verilməsini, SEPAH kimi İranın təhlükəsizlik strukturları tərəfindən hətta uşaqları cəlb etməklə və Xudafərin körpüsünün yanında Azərbaycan əleyhinə təhdid dolu videoçarxların çəkilməsi və nümayişini, Azərbaycanın İrandakı səfirliyinə qarşı terror hücumunu, Milli Məclisin üzvü Fazil Mustafaya qarşı həyata keçirilmiş terror aktının istintaqının ilkin izlərinin İrana dəlalət etməsini qeyd etmək olar”.

**“İran-Ermənistan qardaşlığı region üçün təhlükə olaraq qalmaqdadır”**

*Ayxan Hacızadə bəyan edib ki, İran-Ermənistan qardaşlığı region üçün təhlükə olaraq qalmaqdadır:* ”Bu gün İran-Ermənistan qardaşlığı bütövlükdə region üçün təhlükə olaraq qalmaqdadır. Son 30 il ərzində İran faktiki olaraq səssiz razılığı ilə Ermənistanın Azərbaycan ərazilərinin işğalına göz yummuşdu. Qarabağ və Şərqi Zəngəzurun işğalı və bu ərazilərin talan edilməsinə, bu ərazilərdəki evlərdən sökülmüş daşların İran bazarlarında satılmasına, mövcud olmuş 67 məsciddən 65-in dağıdılması və təhqir edilməsinə İran tərəfindən əhəmiyyət verilməməsi yaxşı məlumdur”.

**“İranın təhdidləri Azərbaycanı heç zaman qorxuda bilməz”**

XİN rəsmisi qeyd edib ki, İranın təhdidləri Azərbaycanı heç zaman qorxuda bilməz, ölkəmizə qarşı hər hansı bir təcavüzün qarşısı qətiyyətlə alınacaq: ”İran ərazisindən Ermənistana göndərilən hərbi dəstəyə baxmayaraq, Azərbaycan Ordusu 2020-ci ildə işğalçı Ermənistan ordusunu darmadağın etdi. Bundan sonra da Azərbaycana qarşı hər hansı bir təcavüzün və təxribatın qarşısı qətiyyətlə alınacaqdır”.

**“Ceyhun Bayramovun İsraildə səsləndirdiyi fikirlərə diqqətlə qulaq assınlar”**

*Ayxan Hacızadə İranın Xarici İşlər Nazirliyinin mətbuat katibi Nasir Kənaniyə tövsiyə edib ki, nazir Ceyhun Bayramovun səsləndirdiyi fikirlərə diqqətlə qulaq assın:* ”Məlum olduğu kimi, xarici işlər naziri Ceyhun Bayramov İsrail xarici işlər naziri ilə mətbuat brifinqi zamanı İrana qarşı hər hansı bir mövqe səsləndirməyib. Bu xüsusda, İran Xarici İşlər Nazirliyi tərəfindən verilən bu açıqlamanı növbəti anti-Azərbaycan addım kimi qiymətləndiririk. Qeyd edilənlərlə əlaqədar, mətbuat katibi Nasir Kənaninin açıqlamasını qətiyyətlə pisləyirik. Bu açıqlama Azərbaycan-İran münasibətlərinin böhran vəziyyətinə salınmasında növbəti addımdır”.

**İsmayıl**

# Yeni qurum qarşısındakı üç ali məqsədə çatmalıdır

## Su ehtiyatlarından səmərəli istifadə edilməsə, həyatın bütün sahələri fəlakətə düçar olar



Su ehtiyatlarının belə ədalətsiz bölgüsü 20-25 il sonra həlli olmayan ciddi problemlər yarada bilər

**Fövqəladə Hallar Nazirliyinin Su Ehtiyatları Dövlət Agentliyinin əsasında Azərbaycan Dövlət Su Ehtiyatları Agentliyi yaradılıb.**

**Bu, Prezident İlham Əliyevin imzaladığı ”Su ehtiyatları, su təsərrüfatı və meliorasiya sahələrində idarəetmənin təkmilləşdirilməsi haqqında” fərmanda yer alıb.**

”Azərsu” Açıq Səhmdar Cəmiyyəti və Azərbaycan Meliorasiya və Su Təsərrüfatı Açıq Səhmdar Cəmiyyəti əmlakları ilə birlikdə Agentliyin tabeliyinə verilib.

Müəyyən edilib ki, Agentlik Azərbaycan Respublikasında suyun mənbədən götürülməsi, emalı, nəqli və təchizatı sahəsində fəaliyyətin təşkilini təmin edən, dövlət mülkiyyətində olan meliorasiya və irriqasiya sistemlərinin, içməli su təchizatı, yağış və tullantı sularının emalı və axıdılması sistemlərinin istismarını, eləcə də bu sahədə xidmətlər göstərilməsini təşkil edən, balansında olan su təsərrüfatı obyektlərinin texniki vəziyyətinə müntəzəm nəzarəti həyata keçirən, Azərbaycan Respublikasında yerüstü, yeraltı su ehtiyatlarının, su və su təsərrüfatı obyektlərinin, hidrotexniki qurğuların, su təchizatı sistemlərinin monitorinqini aparan, bu sahələrdə vahid dövlət siyasətini və tənzimləməsini həyata keçirən mərkəzi icra hakimiyyəti orqanıdır.

Maraqlıdır, iki qurumun birləşdirilərək Azərbaycan Dövlət Su Ehtiyatları Agentliyinə verilməsi bu sahədəki neqativ halları aradan qaldıracaqmı?

İqtisadçı-ekspert Eldəniz Əmirovun ”Şərq”ə açıqlamasına görə, sözügedən dövlət qurumlarının birləşməsindən sonra da büdcə vəsaitləri səmərəli istifadə edilməyəcəksə, korperativ idarəçiliyin ana prinsipləri formalaşmayacaqsa, şəffaf fəaliyyət və ciddi nəzarət mexanizmi olmayacaqsa, bu dəyişikliyin xüsusi bir əhəmiyyəti olmayacaq: ”O zaman iki qurumun birləşməsinin yeganə faydası iki aparat rəhbəri, iki ”otdelkadr” və digər iki-iki təkrarlanan ştatlardan birinin maaşına edilən qənaət olacaq. Adətən belə hallarda əməkdaşların ixtisar edilməməsi, iki yeni ştatların yaradıldığını nəzərə alsaq, deməli, əslində heç onda da maaşlara qənaət olmur.

Amma iki qurum birləşdiyi zaman həqiqi korperativ idarəçilik yaradılarsa, şəffaf fəaliyyət və ciddi nəzarət mexanizmi olarsa və xərclərin səmərəli istifadəsi həyata keçirilərsə, o zaman həqiqətən ciddi faydalar əldə edilə bilər. Bəzən xərclərin səmərəli istifadəsi adı ilə elə gülməli addımlar atılır ki, adam sadəcə söz tapmır deməyə. Məsələn, 5-6 il əvvəl ölkənin ən böyük şirkətlərindən birinin böyük bir idarəsində xərclərin azaldılması üçün otaqlarda olan daxili telefonları yığışdırıb, otaqdakı 5 işçiyə cəmi 1 daxili telefon saxladılar. Nəticədə xərclərin optimallaşdırılması ”müvəffəqiyyətlə” aparılmış hesab edildi. Halbuki telefon xərcləri bəlkə də illik xərcin 0,00000001 faizi idi. Amma işçilərin teleonla bağlı yaşadıqları mübahisələr, diskomfortlar, itirilən zaman, əsəb və işçilərə qarşı hörmətsizliyin mənfi təsirləri isə hesablana bilmirdi. Odur ki, nə qədər ki, xərclərin optimallaşdırılması şou xarakterli olacaq, dillənən hər 5 dövlət şirkətindən 3-ü ”xərcləri optimallaşdırsaq da ili zərərlə başa vurduq” deyəcək. Sonra da küçə süpürən anaların süpürgəçi maaşından tutulan vergiləri bu şirkətlərə datasiya olaraq cəlb edəcəklər”.

”Azərsu” ilə Meliorasiya və Su Təsərrüfatı ASC birləşdirilməsinə gəldikdə isə E.Əmirov deyib ki, ölkə başçısı bu fərmanı imzalayarkən 3 məqsədi əsas göstərib. Bunlardan birincisi su ehtiyatları, su təsərrüfatı və meliorasiya sahələrində idarəetməni təkmilləşdirməkdir. Bura yuxarıda qeyd etdiyim bütün istiqamətlər, o cümlədən xərclərin optimallaşdırılması, effektiv idarəetmə, şəffaflıq və s. daxildir: “Ölkə başçısı ikinci məqsəd olaraq su ehtiyatlarından səmərəli istifadə etmənin təmin olunmasını əsas götürür. Mən deyərdim ki, hazırda nəinki bu qurum üçün, hətta bütün ölkə üçün ən vacib məqsədlərdən biri məhz budur. Çünki su ehtiyatlarından səmərəli istifadə təmin edilməsə, həyatın bütün sahələri fəlakətə gedir. İçməli su problemi insanların, çayların suyunun qeyri-bərabər və ədalətsiz bölünməsi kənd təsərrüfatının, bu da bütün regionun fəlakəti düçar olar. Bu gün bəlkə də hiss edilmir, amma su ehtiyatlarının belə ədalətsiz bölgüsü 20-25 il sonra həlli olmayan ciddi problemlər yarada bilər. Buna görə də fərmanda qeyd edilən bu məqsədə çatmaq yeni qurumun ali məqsədi olmalıdır. Üçüncü məqsəd isə torpaqların meliorasiyası və irriqasiyası işlərinin təşkilini yaxşılaşdırmaqdır ki, bu da regionların inkişafının ”olmazsa olmaz”ıdır. Ümid edirəm ki, yeni yaradılan qurum qarşıya qoyulmuş bu üç məqsədə çatmaqla həm ölkə rəhbərinin etimadını doğruldacaq, həm də kənd təsərrüfatının, dolayısı ilə regionların inkişafında ən böyük problemlərdən birinin qismən də olsa həllinə nail olacaq”.

**Şəymən**

# Ermənistan Bakının təqdim etdiyi təklifi qəbul etmək istəmir

## Tofiq Zülfüqarov: “Onlar faktiki olaraq Azərbaycanın suverenliyini və ərazi bütövlüyünü tanımaqdan boyun qaçırırlar”



**”Biz Azərbaycan ərazilərinin 30 il müddətində hərbi işğal altında olduğu dövrdə ölkəmizin ərazi bütövlüyünə və suverenliyinə verdiyi dəstəyə görə Fələstinə təşəkkür edirik”.**

Bunu Azərbaycanın xarici işlər naziri Ceyhun Bayramov Fələstinin xarici işlər naziri Riyad Əl-Maliki ilə birgə mətbuat qarşısında çıxışı zamanı deyib.

Nazir qeyd edib ki, Azərbaycan postmünaqişə dövründə normallaşma istiqamətində çalışır, Ermənistan isə aqressiv ritorikası ilə sülh niyyətlərini təhdid edir.

Ceyhun Bayramovun sözlərinə görə, normallaşmaya alternativ yoxdur və bu, beynəlxalq sərhədlərin, ərazi bütövlüyünün qarşılıqlı tanınmasına əsaslanmalıdır.

**Ermənistanın rəhbərliyi tərəfindən verilən bəyanatların ziddiyyətli olduğunu deyən sabiq xarici işlər naziri Tofiq Zülfüqarov ”Şərq”ə bildirib ki, sülh prosesinin prinsipləri və müqavilənin bağlanma şərtlərində Azərbaycan öz qəti mövqeyini açıq şəkildə ortaya qoyur:** ”Burada əsasən 5 prinsipdən söhbət gedir. Lakin Ermənistanın verdiyi cavabda, biz onların Azərbaycanın təqdim etdiyi 5 müddəaya əməl etmək istəmədiklərini görürük. Məsələn, ərazi bütövlüyünün qarşılıqlı tanınması prinsipinə onlar ”Qarabağ məsələsi mütləq həll olunmalıdır” cavabı verirlər. Yəni faktiki olaraq Azərbaycanın suverenliyini və ərazi bütövlüyünü tanımaqdan boyun qaçırırlar. Lakin bəyanatlarda biz Azərbaycanın suverenliyini tanıyırıq deyirlər. Digər tərəfdən, sual yaranır ki, əgər siz ərazi bütövlüyümüzü tanıyırsızsa, niyə torpaqlarımızda olan məsələlərə müdaxilə edirsiz? Hətta dövlət başçısı da qeyd etmişdi ki, Qarabağda 10 minə yaxın erməni yaraqlıları qalıb və onların maliyyələşdirilməsi davam edir. Bilirik ki, Ermənistan tərəfi hər il bölgəyə təxminən 360 milyon civarında büdcə ayırır. Xarici işlər naziri Ceyhun Bayramovun çıxışı isə Ermənistan tərəfinin verdiyi bəyanatlarla, praktik əməllərinin üst-üstə düşməməsini beynəlxalq aləmə bir daha göstərməyə yönəlib”.

**Nihat**

# Ermənilərin heç bir çıxış yolu yoxdur

## Azərbaycan Laçın dəhlizində möhkəmləndikdən sonra sülhə məcbur olacaqlar



**“Postmüharibə dövrünün ötən 2 il yarım müddətində hələ də sülhün əldə edilməməsi Ermənistanın üçtərəfli bəyanatın öhdəliklərini yerinə yetirməməsi ilə əlaqədardır. Eyni zamanda özünə yeni amillər axtararaq, regiondakı gərgin vəziyyəti daha da kəskinləşdirməsilə bağlıdır”.**

Bu sözləri ”Şərq”ə millət vəkili Hikmət Babaoğlu Prezident İlham Əliyevin ”Heç kim bizimlə ultimatum dili ilə danışa bilməz”, - deyə vurğuladığı fikirlərə münasibət bildirərkən söyləyib. Deputatın fikirlərinə görə, Ermənistan hesab edir ki, müxtəlif vasitələrlə Azərbaycana təzyiq göstərə bilər: ”Amma cənab Prezident işğaldan azad olunmuş Laçın rayonuna səlahiyyətli nümayəndə təyin edərkən bir daha bu məsələyə qayıtdı. Ölkə başçısı bildirdi ki, heç kim bizim iradəmizə təsir edə bilməz. Əslində regionda ermənilərin təxribat cəhdlərinə qarşı ölkəmizin həyata keçirdiyi tədbirlər də dövlət başçımızın diqqətə çatdırdığı fikirləri bir daha təsdiq edir. Hər təxribatdan sonra Azərbaycan öz iradəsini bir daha qətiyyətlə göstərərək, öz hüquqları gərəyini etməyi bacarıb.

Qarabağda yaşayan erməni icmasının xarici təsirlər altında radikallaşdırılaraq, Azərbaycana qarşı etdiyi qanunsuz hərəkətlər zamanı bu addımlar atılıb. Həmçinin Ermənistan-Azərbaycan sərhədində erməni hərbi birləşmələrinin mövqelərimizi atəşə tutmasından sonra tədbirlər görülüb. Sonuncu belə tədbiri isə ərazimizdən qeyri-qanuni yollar çəkərək, qanunları pozmağa davam edən ermənilərə qarşı gördük.

Nəticə etibarilə, aydın oldu ki, istər qərb, istər şimal, istərsə də cənubda Ermənistana kim nə söz versə də, əməldə rəsmi İrəvanın arxasında dura bilmirlər. Ona görə də dövlətimizin atdığı addımlar məhz sülhü nəzərdə tutur. Ermənilər nə qədər ki, bizə təzyiq etməyə çalışacaqlar, sülhə nail olmayacağıq. Bu səbəbdən Azərbaycan həyata keçirdiyi tədbirlərin məntiqi yekunu olaraq, Laçın dəhlizinə nəzarət-buraxılış məntəqəsi quraşdırmaqla da sülhü daha da yaxınlaşdırmış olacaq. Ermənilər dərk edəcəklər ki, artıq heç bir çıxış yoxdur. Himayədarları, söz verənləri düşmən ölkənin arxasında dura bilmirlər. Azərbaycanla sülhə gəlməkdən başqa bir əlac yoxdur. Bu, ən doğru yoldur”.

**Sücayət Mehti**

# Reytinqi düşür

## Paşinyanın Qarabağ müharibəsindən sonra əvvəlki nüfuzu qalmayıb



“Ölkədə millətçi kəsim “demokrat” hesab edilən baş naziri sevmir”

**Ermənistan Baş naziri Nikol Paşinyanın reytinqlərinin aşağı düşdüyü iddia olunur. Ermənistanın ”Past” nəşri yazıb ki, ilin əvvəlindən bu yana iki dəfə ”dərc olunmayan” sorğu keçirilib. Deyilənə görə, nəticələr hökuməti və xüsusilə Nikol Paşinyanı narahat edib.**

Bəzi sorğulara görə, Paşinyanın müsbət reytinqi 6 faiz azalıb, əvəzində mənfi reytinqi 17 faiz artıb. Nəşr iddia edib ki, yaxın vaxtlarda seçki olsa, seçicilərin ən azı 52 faizi Paşinyana və onun rəhbərlik etdiyi qüvvələrə səs verməyəcək. Məlumata görə, Paşinyan komanda yoldaşlarına parlamentdənkənar qüvvələrə resurslar yatırılması barədə təlimat verib. Ermənistan Parlamentinin keçmiş vitse-spikeri Eduard Şarmazanov da diqqət çəkən açıqlamalar verib. O, yerli mediaya açıqlamasında deyib ki, Ermənistan rəhbərliyi fiaskoya uğrayıb: ”Nikol Paşinyan və onun siyasi komandasının reytinqi tarixi minimuma çatıb. Hətta müharibədən sonra belə onun reytinqi indiki kimi aşağı deyildi”.

**Siyasi elmlər doktoru, professor Cümşüd Nuriyev ”Şərq”ə deyib ki, Ermənistanda aparılan sosial sorğular iki istiqamətdədir. Professorun sözlərinə görə, sorğular həm qərbyönlü təşkilatlar, həm də rusyönümlü şirkətlər tərəfindən aparılır:** ”Paşinyanın retinqinin aşağı olması ilə bağlı anket hazırlayanlar və onları tirajlayan media orqanları Rusiyaya meyilli olmaları ilə tanınır. Əsas məqsədləri Paşinyanın mövqelərinin zəiflədiyini göstərməklə İrəvanın siyasətinə təsir etməkdir. Xüsusən, Baş nazir Azərbaycanla sülh müqaviləsindən danışdıqda, nisbətən irəliyə doğru addımların atılmasından söz açdıqda dərhal bu mərkəzlər işə düşürlər. Paşinyan da peşəkar siyasətçi olmadığına görə, belə mərkəzlərin təşkil etdiyi ”hücumdan” qorxuya düşür və fikirlərini dəyişir. Baş nazir real vəziyyəti görsə də, qərar qəbul etmək gücü yoxdur. Nəzərə alaq ki, dünya tarixində müharibəni uduzmağına rəğmən, yenidən hakimiyyətə gələn, səs toplayan yeganə şəxs məhz Nikol Paşinyandır. Rusiyaya yaxın mərkəzlər görürlər ki, Nikolu bu yolla göndərmək mümkün deyil. Ona görə də fərqli metodlara əl atırlar, sorğularla, reytinq cədvəlləri ilə ictimai rəyi dəyişməyə çalışırlar”.

*C.Nuriyevin fikrincə, anketləri təşkil edənlərin və onu həqiqət kimi gündəmə gətirənlərin məqsədi qarşıdakı seçkilərin nəticələrinə mümkün qədər təsir göstərməkdir:* ”Əksər ölkələr bu variantı öz maraqlarını gündəmə gətirmək üçün ortaya atırlar. Ancaq ümumən götürəndə Paşinyanın Qarabağ müharibəsindən sonra əvvəlki nüfuzu qalmayıb, qala da bilməz. Xüsusən, ölkədə millətçi kəsim ”demokrat” hesab edilən Paşinyanı sevmirlər. Lakin seçkilərə hələ 2 il var və ona qədər hadisələrin gedişatında ciddi dəyişikliklərin olması mümkündür”.

**İsmayıl Qocayev**

# “Tahir Kərimli, növbəti hədəf sənsən"

## Sosial şəbəkələri izləyən terror qruplaşmasının üzvlərindən növbəti təhdid gəldi

**Milli Məclisin deputatı, Böyük Quruluş Partiyasının sədri Fazil Mustafaya sui-qəsdlə bağlı ”Pravda.az”a danışan millət vəkili, Vəhdət Partiyasının sədri Tahir Kərimli özü barədə diqqətçəkən açıqlamalar verib. Deputat vurğulayıb ki, o da təhdidlərlə üzləşib, hədələrə məruz qalıb. O deyib ki, Fazil Mustafanın başına gələnlər olduqca ciddi hadisədir:**



”Hər zaman tənqid edilən tərəf bu terroru törədə bilər. Amma üçüncü tərəf də vəziyyəti gərginləşdirməkdən ötrü belə bir sui-qəsd törədə bilər. Dövlətimizə inanırıq ki, çox kəskin şəkildə hüquqi, siyasi müstəvidə bunun cavabı veriləcək. Hesab edirəm ki, müvafiq qanunda nəzərdə tutulduğu kimi deputatlara silah verilməsi və onların təhlükəsizliyinin təmin olunması vacibdir. İnanırıq ki, dövlətimiz buna daha ciddi diqqət yetirəcək. Mən buna çağırıram. Heç kimə sirr deyil ki, tənqid edən deputatların özü də, ailəsi də səksəkədə yaşayır, narahat olurlar. Bəzən normal insan həyatı sürmürlər”. Deputat bildirib ki, İsmayıllıya gedəndə, demək olar, evdən çölə çıxmır: ”Vacib işim olmayanda Bakıda da tədbirlərə, işə və digər yerlərə çıxmıram. Cənab Prezidentin 60 illiyində Azərbaycan korrupsionerlərini əjdahaya oxşadıb, onları məhv etməyə çağırandan sonra mənə qarşı təhdidlər oldu. Gəlib qapımızın ağzına əjdaha fiquru qoydular. Qeyd də yazmışdılar ki, bu əjdaha səni öldürəcək. Yəni insanların həyatı təhlükə altındadır. Deməyim budur ki, bir sıra deputatlar normal həyat yaşamaqdan məhrumdurlar”.

**Vəhdət Partiyasının sədr müavini Vasif Əfəndiyev ”Şərq”ə açıqlamasında bildirib ki, son günlər davam edən gərginlik və dövlətimizə qarşı törədilən terror aktları Azərbaycanın ərazi bötövlüyünü təmin etmək istiqamətində atdığı qətiyyətli addımlara qarşı təzyiq vasitəsidir. Partiya rəsmisi deyib ki, hər dəfə Azərbaycan Ordusu Qarabağ iqtisadi rayonu ərazisində xarici qüvvələrin təşkil etdiyi təxribatların qarşısını aldıqda Fransa, İran və Rusiya öz narahatlıqlarını açıq ifadə edirlər**: ”Fransa və Rusiya bəyanat vasitəsilə münasibət bildirsə də, İran həm də əməldə ölkəmizdə sabitliyi pozmaq istiqamətində hərəkətə keçir. İndiyə qədər baş vermiş təxribat və terror hadisələrini sadalamayacam, çünki ictimaiyyətə bütün çılpaqlığı ilə məlumdur. Fazil Mustafaya qarşı törədilən terror hadisəsi əslində onun şəxsində dövlətçiliyimizə edilən hücumdur. Vəhdət Partiyasının sədri Tahir Kərimli terror hadisəsinə münasibət bildirəndən dərhal sonra sosial şəbəkələri izləyən terror qruplaşmasının üzvlərindən növbəti təhdid gəldi. ”Tahir Kərmli, növbəti hədəf sənsən ”mesajı verildi. Bu sayaq təhdidlər ilk dəfə deyil və dəfələrlə olub. Gizlətmirəm ki, mənə qarşı da eyni davranışlar olub. Hətta Fazil Mustafa ilə bənzər formada şəkillərimizi eyni zibil qutusunun üzərinə yapışdırıb sosial şəbəkələrdə paylaşmışdılar”.

*V.Əfəndiyev vurğulayıb ki, milli dövlətçiliyimizə sadiq olan ictimai-siyasi xadimlərin terror qrupları tərəfindən hədəf alınması çox pis haldır:* ”Dövlətin öz vətəndaşlarını qorumaq üçün mexanizmi olmalıdır. Hər siyasi fəala mühafizəçi təyin etmək və ya silah vermək real olmasa da, partiya sədrlərinin mühafizəsi təşkil edilməlidir. Şəhər və rayon İcra hakimiyyətlərinin başçılarının mühafizə olunduğunu bildiyim üçün ölkədə tanınmış və fəaliyyəti səbəbindən terrora məruz qalma ehtimalı olan partiya sədrlərinin qorunmasının təmin edilməsi də zəruridir”.

**İsmayıl Qocayev**



# ABŞ vətəndaşlarını Rusiyanı tərk etməyə çağırır

## Belə çağırışlara yaxın vaxtlarda digər ölkələr də qatıla bilər

**ABŞ Dövlət katibi Antoni Blinken Rusiya Federasiyasında qalan amerikalıları dərhal ölkəni tərk etməyə çağırıb.**

**Bu bəyanat ”The Wall Street Journal” qəzetinin jurnalistinin həbsi fonunda verilib.**

”Rusiyada yaşayan və ya Rusiyaya səfər edən ABŞ vətəndaşları ölkəni dərhal tərk etməlidirlər”, - Blinken bildirib.

Onun yazılı bəyanatı Dövlət Departamentinin saytında dərc olunub.

Hadisəyə münasibət bildirən siyasi şərhçi Elçin Xalidbəyli ”Şərq”ə söyləyib ki, bu, ABŞ-nin vətəndaşlarını Rusiyanı tərk etməyə ilk çağırışı deyil: ”Bundan öncə də Amerika və bir neçə ölkə öz vətəndaşlarını Rusiyanı ən qısa zamanda tərk etməyə çağırmışdı. Bunun isə onların həyatına ciddi təhlükə ola biləcəyi ilə arqumentləşdirmişdi. Hətta o zaman Rusiyanın daxilində terror qarışıq xaosun baş verməsi ehtimalı var idi. Lakin bu baş vermədi”.

Analitik qeyd edib ki, Blinkenin budəfəki çağırışı amerikalı jurnalistin Rusiyada həbsi ilə bağlıdır: ”Bildiyiniz kimi, sözügedən jurnalist casusluq ilə məşğul olmaqda ittiham edilir. Vətəndaşlarını Rusiyanı tərk etmək çağırışı da bu hadisədən sonraya təsadüf edir. Ümumiyyətlə, belə çağırışların sayının yaxın vaxtlarda daha da artacağını düşünmək olar. Yəni ABŞ Departamenti və səfirliyinin çağırışına digər ölkələr də qatıla bilər. Çünki rəsmi Moskvaya təzyiqlər sürətlənməyə başlayıb. Xüsusən Putinə qarşı Beynəlxalq Cinayət Məhkəməsinin həbs orderi verməsinin ardından gərginlik son həddə çatıb. Rusiya xüsusi xidmət orqanlarının isə buna cavab olaraq ölkədə fəaliyyət göstərən xarici ölkə vətəndaşlarına və strukturlarına qarşı əməliyyat keçirmə ehtimalı artır. Vəziyyətin hansı yerdə qalacağının yaxın zamanda şahidi olacağıq”.

**Nihat Müzəffər**



# Cinayətlərə hüquqi qiymət verilməsinə çalışmalıyıq

## Professor: “Bütün il boyu ermənilərin törətdikləri soyqırımları gündəmdə saxlamalıyıq”

**”Bölgəmizdə erməni cinayətləri təkcə 31 Mart soyqırımı ilə məhdudlaşmır. 1918-ci ildə ermənilərin törətdikləri cinayətlər həm də Bakı-Quba-Şamaxı və başqa yerlərdə də olub”.**

*Bu barədə ”Şərq”ə açıqlamasında Türkiyənin Erciyes Universitetinin professoru, ermənişünas-alim Qafar Çaxmaqlı deyib. Professor bildirib ki, eyni tarixlərdə Cənubi Azərbaycanın Xoy, Səlmas, Urmiya bölgəsində 300 min Azərbaycan türkü qətl edilib:* ”Bu tarixi faktlardan demək olar ki, heç danışılmır. Bu mənada biz yalnız anım günlərində deyil, bütün il boyu ermənilərin törətdikləri soyqırımları gündəmdə saxlamalıyıq. Bütün bunlar sadəcə təbliğat vasitəsi olmamalıdır. Cinayətlərə hüquqi qiymət verilməsinə çalışmalıyıq. Həmin illərdə Qərbi Azərbaycan türklərinə qarşı dönəmin daşnak hakimiyyətinin apardığı siyasətin də bir soyqırımı olduğunu ortaya qoymalıyıq. 1905-1906-cı ildən başlayaraq yüzlərlə Azərbaycan kəndinin, qəsəbəsinin yox edilməsi, 1918-ci ildən sonra isə İrəvan vilayətində bütün türk-müsəlman əhalinin qırılması, köçə məcbur edilməsi soyqırım deyil, nədir? Bunları yalnız Azərbaycan ictimaiyyəti deyil, dünyanın diqqətinə çatdırmaq ən böyük vəzifəmizdir. 31 martın azərbaycanlıların soyqırımı günü kimi dünyanın tanıması ümdə, milli bir işə çevrilməlidir”.

**İsmayıl**

# İran Qarabağdakı separatçılığı təşkilatlandırmağa çalışacaq

## Tehranın diplomatik trafikdəki dəyişikliklərini də izləmək lazımdır

**İran ordusunun Quru Qoşunlarının Komandanı Kiyumərs Heydəri tərəfindən Azərbaycana münasibətdə çirkin iftira və böhtan xarakterli fikirlər səsləndirilib. Heydəri öz cəfəng fikirlərində Azərbaycanda, guya, ”sionist” qüvvələrin olması və 44 günlük Vətən müharibəsində Azərbaycanın Suriyadan gətirilən İŞİD terrorçularından istifadə etdiyini və onların hələ də ölkə ərazisində olduğunu iddia edib.**

O, eyni zamanda İran tərəfindən Ermənistan ilə sərhəddə dəyişikliklərə icazə verilməyəcəyini deyib. Azərbaycan Müdafiə Nazirliyi iranlı generalın ittihamını cavabsız qoymayıb. Nazirliyin bəyanatında vurğulanıb ki, Azərbaycan ərazisində hər hansı xarici qüvvələrin olması haqqında İran tərəfinin ittihamı əsassızdır və tamamilə qəbuledilməzdir. Ümumiyyətlə, Azərbaycan ərazisində kənar elementlər mövcud deyil. Heydəriyə xatırladılıb ki, Ermənistan 30 il ərzində Azərbaycan ərazilərini işğal altında saxlayıb: ”Bu hərbi təcavüz nəticəsində Azərbaycan-İran dövlət sərhədinin 137 kilometrlik hissəsi də işğal edilib. Lakin İran tərəfi bir dəfə də olsun Ermənistana münasibətdə ittihamedici açıqlama verməyib. Əksinə, bu dövr ərzində İran-Ermənistan qardaşlığı daha da güclənib. Bu gün də heç kimə sirr deyil ki, Ermənistanın dünyada iki əsas müttəfiqi varsa, onlardan biri Fransa, ikinci isə İrandır”. Açıqlamada deyilib ki, Azərbaycan bütün ölkələrin ərazi bütövlüyünü dəstəkləyir və dövlətlərin daxili işlərinə qarışmır: ”44 günlük Vətən müharibəsində Azərbaycanın, guya, İŞİD terrorçularından istifadə etməsinə dair ittihama cavab olaraq bildiririk ki, şanlı Azərbaycan Ordusu təkbaşına torpaqlarımızı işğaldan azad edərək zəfər salnaməsi yazıb. Bu iddia cəfəng ittiham və iftiradan başqa bir şey deyil. Bu ittihamın məhz terrorizmi dəstəkləyən və adı dünyanın müxtəlif ölkələrində terror əməllərinin törədilməsində keçən dövlətin yüksəkçinli hərbçisi tərəfindən irəli sürülməsi istehza doğurur və gülüncdür”.



Vəziyyət getdikcə həm aydınlaşacaq, həm də bu aydınlaşmalardan sonra daha da mürəkkəbləşəcək

**Siyasi şərhçi Aqşin Kərimov deyib ki, Müdafiə Nazirliyinin bəyanatının mətni Tehranın addımlarının terrorla tövsif edilməsində yeni səhifədir. Analitikə görə, İranın ənənəvi ”sərhədlərin dəyişməyinə icazə verməyərik” tezisini, ”regionda İŞİD terrorçularından istifadə edilir” kimi boşboğazlığını təkrarlayan Heydərini yerində oturdan cavabda iki element diqqət çəkir:** ”Birincisi, Müdafiə Nazirliyi rəsmi şəkildə İranın terrorizmi dəstəklədiyini deyir. Bu, ümumi panoramda yeni arqument olmasa da, Müdafiə Nazirliyi tərəfindən dilə gətirilməsi yenilikdir.

Yəni MN deyir ki, İran regiondakı terrorçuluq fəaliyyətini hərbi təxribatlar, xarici qüvvələrin bölgədəki fəaliyyətini bəhanə edərək pərdələyir. Azərbaycanın hərbi kəşfiyyatında İranın regiondakı vəziyyəti hərbi ritorika ilə qızışdırmasına dair ciddi məlumatlar var. İkincisi, nazirliyin bəyanatında Fransa ilə Ermənistanı İranın iki əsas müttəfiqi kimi xarakterizə etməklə Tehranla Parisin eyni ox üzərindən Azərbaycana qarşı fəaliyyətinə işarə verə bilər. Fransa öz kəşfiyyatı vasitəsilə dünyadakı çəkişmə bölgələrində iştirak edərək qlobal nüfuzda itirilən çəkisini bərpa etməyə, bununla da diktəli məzmunlar yazmağa çalışır. Bu mənada MN-in bəyanatının Fransaya toxunan hissələrinin mahiyyətini diqqətdə saxlamaq lazımdır. Hələlik bu məntiq doğur ki, Fransa Avropa İttifaqının Ermənistana yerləşdirilən missiyasının köməyi ilə Azərbaycana qarşı hərbi təxribatların həmmüəllifi olmaqda maraqlıdır. Parisin Tehranla koordinasiyada olub-olmadığına dair ciddi sayılacaq aydın dəlillər yoxdur. Lakin hadisələri, maraqları nəzərdən keçirəndə onların Azərbaycana münasibət məsələsində yola getdiklərini deməyə əsaslar tapırıq. Vəziyyət getdikcə həm aydınlaşacaq, həm də bu aydınlaşmalardan sonra daha da mürəkkəbləşəcək”.

Ekspertə görə, vəziyyətin mürəkkəblik dərəcəsini İranın İŞİD terrorçuları iddiası, Azərbaycana qarşı Ermənistanın xeyrinə vurnuxması fonunda yeni təxribatlar ata biləcəyi ilə əlaqələndirmək olar: ”Bu tezislərdən yola çıxaraq, İranın diplomatik trafikdəki dəyişikliklərini də izləmək lazımdır. İran Suriyadakı keçmiş səfiri Mehdi Subhanini Ermənistana səfir təyin etmək qərarına gəlib ki, bunu sıradan bir rotasiya qaydası kimi anlamaq olmaz. Niyə? Ona görə ki, Mehdi Subhani Suriyada İranın proksi qüvvələrinin ayaqlanmasına töhfələr verib. Deməli, İran Qarabağdakı separatçılığı təşkilatlandırmağa çalışacaq. Hərçənd ki, Laçın yolunun bağlanmasından sonra bu, müşkül görünür. Yeni diplomatı Ermənistanla Azərbaycanın sərhədindəki vəziyyəti xaotik nəticələrə kökləmək üçün təlimatlandıracaq”.

**İsmayıl Qocayev**

# Azərbaycanda çox güclü siyasi dialoq mühiti var

## Cümşüd Nuriyev: “Belə bir şəraitdə dövlətimizi məğlub etmək qeyri-mümkündür”

**“Cənab Prezidentin sərt çıxışları təbii ki, təsadüfi deyil. Azərbaycana olan siyasi təzyiqlər fonunda ölkə Prezidentinin bu tip bəyanatlar verməsi anlaşılandır”.**

Bunu ”Şərq”ə siyasi elmlər doktoru, professor Cümşüd Nuriyev Prezident İlham Əliyevin ”Heç kim bizimlə ultimatum dili ilə danışa bilməz”, - deyə vurğuladığı fikirlərə münasibət bildirərkən söyləyib. Onun sözlərinə görə, İkinci Qarabağ savaşından sonra Qafqazda yeni reallıqlar yaranıb: ”Bunu yaradan isə Azərbaycandır. Siyasi münasibətlərdə iştirak edən tərəflər, Ermənistan və onu dəstəkləyən qüvvələr başa düşməlidir ki, dövlətlərarası münaqişələr BMT-nin Nizamnaməsinin 33-cü maddəsinə görə, sülh yolu ilə həll olunmalıdır. Ermənistan və himayədarları anlamırlar ki, istər 1899-cu il, istərsə də 1907-ci il Haaqa konvensiyalarının birinci maddəsi birmənalı şəkildə bütün münaqişələrin sülh yolu ilə həll olunmasını tələb edir. Yəni bu dövlətlər də BMT-nin üzvüdür. Onlar da həm BMT Nizamnaməsi, həm də Haaqa konvensiyalarına birmənalı şəkildə əməl etməlidirlər. Azərbaycan tərəfinin bunu yerinə yetirməsinə baxmayaraq, hələ də dövlətimizə qarşı təhdidlər var. Ölkəni qarışdırmaq istəyən qüvvələr mövcuddur. Onlar həm xaricdə, həm də burada uzantıları



olan ölkədaxili ”5-ci kolon” statusundakı qüvvələrdir. Dayanıqlı siyasi sabitliyi pozmaq maraqları çərçivəsindədir. Bunun fonunda da həmin adamlar öz istədiklərini həyata keçirmək niyyətindədirlər. Amma alınmayacaq. Bildiyimiz kimi, Azərbaycanda siyasi partiyalar haqqında yeni qanun qəbul olundu. İlk dəfə həmin Qanun Milli Məclisin saytında dərc olundu.

Siyasi partiyalar, müxtəlif politoloqların etdiyi 110-a yaxın dəyişiklik və əlavələrdən sonra qanun qəbul olundu. Bu, ölkəmizdə yeni siyasi mühitin yaranmasına şərait yaratdı. Müharibədən öncəki Azərbaycan bir növ postmüharibə dövrünə transformasiya olundu.

Bununla da Azərbaycan qısa bir zaman kəsiyində Ordumuzun qazandığı qələbə ilə yeni bir siyasi mühit yaratdı. Siyasi dialoq nəticəsində dövlətimiz çox güclü mövqe qazandı. Cənab Prezidentin kəskin çıxışı da məhz ölkəmizin qazandığı mövqe ilə bağlıdır.

Çünki artıq çox güclü dövlətimiz var. Nəyi istədiyini, hədəfə çatmaq üçün necə hərəkət etməlidir, hansı yolları seçib, metodlardan istifadə olunmalıdırsa, hamısını dərk edir. Ermənistan və himayədarlarının açıqlamalardan, bəyanatlardan nəticə çıxartmamağı isə onların problemidir. Daha doğrusu, həmin qüvvələrin Qafqazdakı siyasi maraqları üst-üstə düşmür. Heç Ermənistanı da sevmirlər”.

**C.Nuriyev vurğulayıb ki, bir müddət İran ara qarışdırmaq statusunda çıxış etdi:** ”Amma indi də İran XİN-in verdiyi bəyanatdan görünür ki, rəsmi Tehran 3+3 formatının nə qədər əhəmiyyətli olduğunu dərk edib. Başa düşür ki, bölgədə gedən proseslər Azərbaycandan çox cənub qonşumuzun ziyanınadır. Yəni anti-Azərbaycan mövqeyli bəzi İran dövlət nümayəndələri erməniləri dəstəkləməklə özlərini də çətin vəziyyətə salıblar. Bu mənada Azərbaycana olan siyasi təzyiqlərin sayının çoxalması Türkiyənin ”başının” prezident seçkilərinə qarışması ilə əlaqədardır. Amma qarşı tərəf çox ağılsız hərəkət edir. Anlamırlar ki, Türkiyə bu tip xırda, cılız təxribatlara uymayacaq. Onlar həmişə Azərbaycanın yanındadırlar. Ona görə rəsmi İrəvanın himayədarları bir az bu barədə fikirləşsə, daha yaxşıdır. Azərbaycan hazırda çox güclüdür. Yeni reallıqları dərk edir. Ölkəmizdə çox güclü dialoq mühiti var. Belə bir şəraitdə dövlətimizi məğlub etmək qeyri-mümkündür”.

*Qeyd edək ki, Prezident İlham Əliyev Məsim Məmmədovu Prezidentin Şərqi Zəngəzur iqtisadi rayonuna daxil olan Laçın rayonunda xüsusi nümayəndəsi təyin olunması ilə əlaqədar qəbul edərkən bildirib:*

*”Müharibədən ötən iki il yarım müddət ərzində bütün dünya, eyni zamanda anti-Azərbaycan qüvvələr bizim əyilməz iradəmizi gördü. Heç kim bizim iradəmizə təsir edə bilməz. Heç kim bizimlə ultimatum dili ilə danışa bilməz. Biz bunu İkinci Qarabağ müharibəsində Ermənistana sübut etmişik, müharibədən keçən iki il yarım ərzində Ermənistanın himayədarlarına sübut etmişik”.*

**Sücayət Mehti**

# İran-Azərbaycan gərginliyi artmaqdadır

## Tehran artıq daxildə və xaricdə üzləşdiyi böhranların üstünə başqa bir böhran yaratmamaq üçün çalışmalıdı



**İsraildə Azərbaycan səfirliyinin açılmasına Iran XİN münasibət bildirib: Azərbaycan və İsrail xarici işlər nazirlərinin görüşündə səsləndirilən fikirlərlə bağlı Azərbaycandan izahat tələb edirik. İsrail Azərbaycan ərazisini İranın milli təhlükəsizliyinə təhdid halına gətirir. Bunu şiddətlə qınayırıq.**

Bir çox mərkəzlərin müharibə ehtimallarını qiymətləndirərkən o qədər də ciddi konfrantasiya olması qənaətini bölüşmədiklərini deyən Sosial Tədqiqatlar Mərkəzinin Mətbuat xidmətinin rəhbəri, beynəlxalq məsələlər üzrə ekspert Əziz Əlibəyli "Şərq"ə bildirib ki, birbaşa hərbi münaqişə ehtimalı az olsa da, İran-Azərbaycan gərginliyi artmağa hazırdır: "Çünki Tehran Azərbaycan və Ermənistan arasındakı münaqişədə Rusiyanın buraxdığı boşluğu doldurmağa çalışır və regionda qüvvələr balansını dəyişdirir. İran və Azərbaycan arasında potensial hərbi münaqişə ilə bağlı narahatlıqlar birincinin Ermənistanla davam edən münaqişədə artan iştirakı fonunda çoxalır. Oktyabrın sonunda İran (2020-ci ildə) Ermənistan və Azərbaycan arasında Dağlıq Qarabağ müharibəsi başa çatdıqda İran-Azərbaycan sərhədində ikinci dəfə hərbi təlimlər keçirməyə başlayıb. Bu təlimlərin keçirilməsi ilə bağlı qərarla da İranın Ermənistanla siyasi və hərbi zəmində artan ittifaqı olub ki, bu da son həftələrdə Tehran və Azərbaycan arasında gərginliyin artmasına səbəb olub. Yanvarın 29-da Azərbaycan səfirliyinin əməkdaşlarına və onların ailə üzvlərinə silahlı şəxsin hücumu və səfirlikdə üç nəfərin güllələnməsindən iki gün sonra İrandan təxliyə edib. Bakı bu hadisənin terror hücumu olduğunu deyir, İranın bu apardığı "anti-Azərbaycan kampaniyası" ilə təşviq edildiyini açqlayır və İranı səfirliyin təhlükəsizliyini lazımi şəkildə təmin etməməkdə günahlandırır. Hətta yanvarın 31-də Azərbaycan daha sonra iki ölkə arasında "qeyri-sabit vəziyyət" adlandırdığı üçün öz vətəndaşlarını İrana səfərdən çəkinməyə çağıran xəbərdarlığı etdi. İran isə təcavüzkarın görüntülərini yayımlayıb və bildirib ki, o, həyat yoldaşının səfirlikdə girov saxlandığına etirazını bildirir. Yəni İran hücumun heç bir siyasi motivi olmadığını və bunun ikitərəfli əlaqələrə xələl gətirməyəcəyini iddia edir.

Azərbaycan Prezidenti İlham Əliyev 2022-ci il noyabrın 25-də "millətimizin bir hissəsi" adlandırdığı, əsasən etnik azərbaycanlılardan ibarət olan İranın şimalında İrana görə separatçı hərəkatın baş verəcəyinə işarə vurub və İranın qorxusunu artırıb. Bütün bu proseslər Moskvanın diqqətini və resurslarını Ukraynaya yönəltdiyi bir vaxtda Rusiyanın regional hegemon güc kimi ənənəvi rolundan geri çəkildiyi bir vaxta təsadüf edir.

2020-ci ildə müharibə başa çatdıqdan sonra Ermənistan və Azərbaycanda dislokasiya olunmuş Rusiya sülhməramlıları iki ölkə arasında atışmalara müdaxilə etməkdən imtina ediblər.

Yaxın tarixdə regionun ən diqqətçəkən iki geosiyasi oyunçusu Türkiyə və Rusiya olub. Türkiyənin Azərbaycanla sıx siyasi əlaqələrlə yanaşı, güclü etnik, mədəni və dil bağları var. Rusiya (Sovet dövründə həm Ermənistan, həm də Azərbaycana nəzarət edən) əvvəllər iki regional rəqib arasında əsas vasitəçi rolunu oynayıb.

Bununla belə, Moskvanın Ermənistanla rəsmi şəkildə Avrasiya İqtisadi İttifaqına (bəzi postsovet ölkələrinin iqtisadi birliyi) və Kollektiv Təhlükəsizlik Müqaviləsi Təşkilatına (NATO-nun Rusiya versiyası) ortaq üzvlüyü vasitəsilə daha yaxın əlaqələri var. Lakin Rusiyanın Ukraynada davam edən müharibəsi ilə diqqətinin yayındığı bir vaxtda İranın Türkiyə və Azərbaycana qarşı aktiv rol alması aydın oldu".

Ekspert qeyd edib ki, mübahisəli Zəngəzur dəhlizi ətrafında aparılan danışıqların nəticəsi Azərbaycan, Ermənistan və İran arasında gərginliyin azalıb yatırılmayacağını müəyyən etmək üçün əsas rol oynayacaq:

"Dəhliz İran-Ermənistan sərhədi boyunca Ermənistan ərazisindən keçməklə materik Azərbaycanı muxtar Naxçıvan anklavı ilə (başqa şəkildə ölkənin qalan hissəsindən Cənubi Ermənistan tərəfindən ayrılır) birləşdirəcək. Bakı dəhlizin yaradılmasını qətiyyətlə dəstəkləyir. Çünki o materik Azərbaycanı Naxçıvanın şimal sərhədi vasitəsilə birbaşa Türkiyə ilə birləşdirəcək. Türkiyə də eyni səbəbdən Zəngəzur dəhlizinin yaradılmasını dəstəkləyir. Ermənistan isə ərazi suverenliyinə birbaşa zərbə vuracağından ehtiyat etdiyi üçün dəhlizin yaradılmasına qarşı çıxır. Ona görə də Ermənistan yeni yol əlaqələrinin təmin edilməsini, eləcə də əvəzində materik Azərbaycanla Naxçıvan arasında sovet dövründən qalan dəmir yolu xəttinin yenidən açılmasını təklif edib. Lakin Azərbaycan bu alternativləri qəbul etməyib. Ermənistan və Azərbaycan mövqelərini dəyişməsələr, hərbi eskalasiya ehtimalı artacaq. Rəsmi Tehran da həmçinin dəhlizin yaradılmasının qəti əleyhinədir. Ona görə ki, bu, digər ölkələrin Naxçıvandan Azərbaycana, Xəzər dənizi və Mərkəzi Asiyaya yüklərin və insanların daşınmasında İrandan asılılığını azaldar. Bundan əlavə, İran iddia edir ki, dəhliz İranın Avrasiya İqtisadi Birliyi üzvləri və onun ən mühüm iqtisadi tərəfdaşlarından biri olan Rusiyaya quru çıxışını kəsəcək. Cənub qonşumuzun bu məsələdə Azərbaycana qarşı çıxması isə regional gərginliyi daha da artırır.

Ə.Əlibəylinin sözlərinə görə, Bakı və Tehran İranın etnik azərbaycanlı və ya türk icmasının mübahisəli statusu ilə bağlı da fikir ayrılığına malikdir:

"İranın özündə azərbaycanlı separatçı siyasi partiyalar olmasa da, Azərbaycandan fəaliyyət göstərən bəzi qruplar İran azərbaycanlılarını təmsil etdiklərini iddia edərək Şimali İranda müstəqil Azərbaycan dövlətinin yaradılmasını müdafiə edirlər. Əvvəllər Azərbaycan Tehran əleyhinə separatçı hərəkata dəstək verə biləcəyi ilə bağlı bəyanatlar verməkdən çəkinirdi. Lakin 2022-ci ilin sentyabrında İranda kütləvi antihökumət etirazları başlayandan bəri Bakı İrandakı azərbaycanlıları "millətimizin bir parçası", Şimali İranı isə "Güney Azərbaycan" adlandırmaqla ritorikanə zənginləşdirib. Siyasi dilin dəyişməsi göstərir ki, Bakı İran mövqeyini dəyişməzsə, şimalda potensial separatçı hərəkata dəstək verməklə hədələyə bilər. Xüsusən də İran Ermənistanı dəstəkləmək üçün hərbi müdaxilə edəcəyini tez-tez deməyə davam edərsə, 19-cu əsrə qədər Qacar imperiyasının tərkibində olan Azərbaycanın İranla dərin tarixi əlaqələri var. Bundan əlavə, İran və Azərbaycan dünyada şiələrin çoxluq təşkil etdiyi dörd ölkədən ikisidir. Azərbaycanlılar İranda ən böyük etnik azlıqdır (çoxluqdur) və İran Azərbaycanı regionunda etnik çoxluğu təşkil edir. Əslində İranda etnik azərbaycanlı sayı Azərbaycanın özündə olduğundan xeyli çoxdur. Bu, potensial əməkdaşlıq mənbəyi kimi görünsə də, cənub qonşumuzun yartımaz mövqeyi ucbatından münaqişə mənbəyinə çevrilib. İrandakı azərbaycanlılar öz dil və mədəni hüquqlarını daha da genişləndirmək istəsələr də, onlar İran cəmiyyətinə çox yaxşı inteqrasiya ediblər. Həqiqətən də, İranın ali dini lideri Ayətullah Əli Xamenei özü yarı azərbaycanlıdır".

Ekspert əlavə edib ki, Azərbaycanın İranın əzəli düşməni olan İsraillə yaxın münasibətləri getdikcə daha açıq şəkildə ortaya çıxır:

"Azərbaycan və İsrail 1992-ci ildə diplomatik münasibətləri rəsmiləşdirəndən bəri sıx əlaqələr saxlayır. Lakin bu, yaxınlarda daha çox rəng dəyişməyə başladı. Azərbaycan yanvarın 11-də İsrailə ilk səfirini təyin etdi - yəhudi dövlətində səfirlik açan ilk şiə ölkəsi olmaq planlarını elan etdi. İsrail isə enerji tələbatını ödəmək üçün böyük ölçüdə Azərbaycana güvənir və neftqazın 48 faizini Azərbaycandan alır.

İran iddia edir ki, neft və qazdan başqa, Azərbaycan İsrailə kəşfiyyat məlumatları da ötürür. Bakı isə guya, öz ərazisini İsrailin casus agentliyi Mossad üçün forpost kimi istifadə etməyə icazə verir. Guya, enerji tədarükü, verilmiş kəşfiyyat dəstəyi müqabilində İsrail Azərbaycanı silah və hərbi texnologiyalarla təmin edir. Ümumiyyətlə, İran İsrail və Azərbaycanın getdikcə daha sıx (və aşkar) siyasi, iqtisadi və hərbi əlaqələrini onun təhlükəsizliyinə və geosiyasi gücünə təhdid kimi görür. Xüsusən də nəzərə alsaq ki, hər iki ölkə İranın genişlənən regional təsirindən çox narahatdır. Noyabrın 26-da Azərbaycan Prezidenti Əliyev ölkə Parlamentinin İsraildə səfirliyin açılması ilə bağlı tarixi qərarını təsdiqləyib. Yanvarın 14-də İsrailin xarici işlər naziri Eli Koen azərbaycanlı həmkarını səfirlik açıldıqdan sonra ona baş çəkməyə dəvət edib.

2020-ci ildə İsrail ilə Azərbaycan arasında ticarət dövriyyəsi 200 milyon dollar təşkil edib. 2016-2020-ci illər arasında Azərbaycanın əsas silah idxalının 69 faizi İsrailin payına düşüb.

2021-ci ilin oktyabrında İranın ali dini lideri Xamenei İsrailin Azərbaycanda "hərbi mövcudluğuna" görə xəbərdarlıq edib. Bu aydın ağırlaşdırıcı amillərə baxmayaraq, Azərbaycan və Ermənistan arasında növbəti silahlı münaqişə başlasa belə, 2023-cü ildə İran və Azərbaycan arasında birbaşa müharibənin baş verməsi ehtimalı azdır. Nə Azərbaycan, nə də İran bir-biri ilə müharibə etmək istəmir ki, bu da hər iki ölkəyə baha başa gələcək (müxtəlif səbəblərdən olsa da).

Azərbaycan isə qabaqcıl silahlara malikdir, ordusu İranın güclü ordusundan xeyli üstündür. Amma İran Ermənistan deyil və iki dövlət arasında faktiki müharibə edəcək balans yoxdur".

Analitik vurğulayıb ki, İran, öz növbəsində, artıq daxildə və xaricdə üzləşdiyi böhranların üstünə başqa bir təhlükəsizlik böhranı yaratmamaq üçün çalışmalıdı: "Azərbaycanla genişmiqyaslı hərbi münaqişə Tehranı Aminin ölümü ilə bağlı davam edən hökumət əleyhinə etirazlar fonunda artan daxili narazılığı cilovlamaqdan yayındıracaq. Belə bir müharibə həm də iranlıları (xüsusən də etnik azərbaycanlı olanları) qəzəbləndirə bilər ki, bu da siyasi dəyişiklik üçün artan çağırışları gücləndirməklə İran rejimi üçün daha böyük legitimlik böhranına yol aça bilər. Bundan əlavə, İran hazırda İsraillə gərginləşən "kölgə" münaqişəsinə fokuslanıb, bunu ən son yanvarın 28-də İsrailin İsfahandakı İran hərbi obyektinə şübhəli pilotsuz təyyarə hücumu sübut edir. Körfəz ölkələri ilə Bakının yaxşı münasibəti də Tehranı Azərbaycanla birbaşa hərbi münaqişəyə girməkdən daha da çəkindirir.

Türkiyə isə demək olar ki, İranla münaqişədə Azərbaycanın mövqeyini dəstəkləyəcək. Çünki yüksəksəviyyəli Azərbaycan və Türkiyə rəsmiləri öz ölkələrini "bir millət, iki dövlət" kimi xarakterizə ediblər.

Azərbaycanın NATO üzvü olan Türkiyə ilə həmsərhəd olduğunu nəzərə alsaq, istənilən İran-Azərbaycan münaqişəsinin NATO ərazisinə keçmək potensialı olacaq ki, bu da məhdudlaşdırıcı rol oynayır. Bundan əlavə, İranla müharibə vəziyyətində Azərbaycan demək olar ki, mütləq İsrailin silahlarına və kəşfiyyatına arxalanacaq və bu münaqişənin birbaşa İsraillə eskalasiyaya çevrilən proksi müharibəyə çevrilməsi riskini artıracaq. Həmçinin İran və Azərbaycan arasında hipotetik hərbi münaqişə Rusiyanın Ukraynada davam edən müharibəsi nəticəsində Cənubi Qafqaz boyunca neft və qaz axınını pozmaqla qlobal enerji bazarının pozulmasını daha da gücləndirə bilər. Bu, hərtərəfli müharibə ilə nəticələnməsə belə, Azərbaycan və İranın artan rəqabəti, onların hazırkı çəkişmələrində kimin qalib kimi görünməsindən asılı olaraq, əsas geosiyasi təsirlərə malik olacaq.

İran Zəngəzur dəhlizinə qarşı təhdidlərindən geri çəkilərsə, ölkənin şimal sərhədi türk dövlətlərinin nəzarətində olacağından Cənubi Qafqazda daha çox təsir etmək istəkləri çox güman ki, azalacaq.

Bu ssenaridə Tehran iki ölkə arasında mühüm əlaqə nöqtəsi kimi hazırda Türkiyə və Azərbaycan üzərində sahib olduğu təsir rıçaqlarını itirəcək.

Bundan əlavə, İran Avropa İttifaqı ilə bütün quru ticarətində Türkiyə və Azərbaycana güvənmək məcburiyyətində qalacaq. Dəhliz şərtlərindən asılı olaraq, İran həm də Rusiya və Ermənistan kimi əsas yaxın ticarət tərəfdaşlarından düşünür ki, daha çox ayrıla bilər və hər üç ölkənin iqtisadiyyatına potensial zərər verə bilər.

Əvəzində Azərbaycan Zəngəzur dəhlizi ilə bağlı tələblərindən geri çəkilsə, regional gərginlik qısa müddətdə azalacaq, eyni zamanda İranın regionda əsas güc vasitəçisi, xüsusən də Ermənistanın maraqlarının müdafiəçisi kimi rolunu möhkəmləndirəcək.

Bu, öz növbəsində, Ermənistanın getdikcə daha çox İrana (və təkcə Rusiyaya deyil) Azərbaycan və Türkiyəyə qarşı çəkişmə rolunu oynaya biləcəyi daha uzunmüddətli regional təsirlərə malik olacaq".

**Nihat Müzəffər**



**"Cümhur İttifaqı"nın namizədi, hazırkı dövlət başçısı Rəcəb Tayyib Ərdoğan, "Millət İttifaqı"nın namizədi Kamal Kılıçdaroğlu və Məmləkət Partiyasının sədri Məhərrəm İncənin prezidentliyə namizədliklərinə dair etiraz edilib.**

Yüksək Seçki Qurumunun sədri (YSK) Ahmet Yener bildirib ki, rəhbərlik etdiyi qurumda yekdilliklə bu etirazların əsassız olduğu

# "Ərdoğan 1-ci turda qalib ola biləcək"

## Keçirilən əksər rəy sorğuları daha çox onu göstərir ki, hazırkı iqtidarın tərəfdarları kifayət qədərdir

müəyyən edilib və etirazlar rədd edilib. Xatırladaq ki, Türkiyədə prezident və parlament seçkiləri 14 mayda keçiriləcək. Seçkiöncəsi müxtəlif şirkətlər rəy sorğuları keçirirlər. "Optimar" Araşdırma Mərkəzinin keçirdiyi son sorğuya görə, seçicilərin 47 faizindən çoxu hazırkı Prezident Rəcəb Tayyib Ərdoğana səs verməyə hazır olduğunu bildirib. Ərdoğanın əsas rəqibi, "Altılı masa"nın vahid namizədi Kamal Kılıçdaroğluna isə respondentlərin 45,3 faizi səs verəcəyini bildirib. Qeyd edək ki, "Optimar" bundan öncə 2014 və 2018-ci il seçkiləri və 2017-ci il referendumu barədə dəqiq proqnoz vermişdi.

***"Bizim üçün əsas odur ki, türk vətəndaşının seçkiyə münasibətini və seçki kampaniyasının coşğusunu öyrənək"***

Türkiyədə keçiriləcək seçkilərlə bağlı "Şərq"ə danışan Azərbaycan Demokratik Partiyasının sədr müavini Həsrət Rüstəmov bildirib ki, Türkiyədəki seçkilər öz demokratikliyi ilə bütün şərq ölkələri üçün nümunə hesab oluna bilər. Partiya təmsilçisinin sözlərinə görə, fikir müxtəlifliyi, azad rəqabət mühiti, insanlarda seçki coşğusunun yüksək olması olduqca diqqətçəkicidir: "Konkret namizədlər və bloklara gəldikdə isə nəticənin proqnozlaşdırılmasının asan olmadığı bir mübarizə ilə qarşı-qarşıyayıq. Əlbəttə, hər iki tərəfin üstünlükləri və çatışmayan tərəfləri var. Mən şəxsən uzun müddət hakimiyyətdə qalmasına baxmayaraq, həyata keçirdiyi mühüm milli və regional layihələrin davam etdirilməsi baxımından Ərdoğanın bir daha seçilməsini arzu edərdim. Türk seçiciləri arasında bu düşüncənin çoxluq təşkil etdiyini düşünürəm. Keçirilən əksər rəy sorğuları daha çox onu göstərir ki, hazırkı iqtidarın tərəfdarları kifayət qədərdir. Eyni zamanda müxalifətin yekdil olmaması, ortalığa ciddi bir fiqur olan Məhərrəm İncənin də çıxması onu deməyə əsas verir ki, Ərdoğan 1-ci turda qalib ola biləcək. Bizim üçün əsas odur ki, türk vətəndaşının seçkiyə münasibətini və seçki kampaniyasının coşğusunu öyrənək. Öz ölkəmizdə də vətəndaşımız siyasi proseslərə fəal müdaxilə etsin, passiv vəziyyətdə olmasın".

**İsmayıl Qocayev**

# Ölkəyə Çinin işlənmiş avtomobilləri gətiriləcək

## Hər kəsin istehsal ili 10 il olan maşını əldə etmək imkanı yoxdur



**Məlum olduğu kimi, Nazirlər Kabinetinin 2023-cü il 29 mart tarixli "İstismar olunan minik avtomobillərinin Azərbaycan Respublikasının gömrük ərazisinə gətirilməsinin məhdudlaşdırılması haqqında" qərarına əsasən, zavod buraxılış tarixinə görə yaşı 10 ildən çox olan minik avtomobillərinin ölkə ərazisinə gətirilməsi məhdudlaşdırılır. Bu qərar vətəndaşlar arasında birmənalı qarşılanmayıb. Mütəxəssislər də məhdudlaşdırmanın maşın bazarına ciddi təsir edəcəyini bildirirlər.**

Mövzu ilə bağlı "Şərq"ə açıqlama verən nəqliyyat üzrə ekspert Elməddin Muradlı bildirib ki, sözsüz ki, bu qərar ölkədəki daxili maşın bazarına təsirsiz ötüşməyəcək: "Hazırda Azərbaycan maşın bazarında istehsalı köhnə olan avtomobillər üstünlük təşkil edir. İnsanlarda belə avtomobillərə olan tələbat daha çoxdur".

Ekspert vurğulayıb ki, hökumət bu qərarı düzgün verib, sadəcə burada bəzi nüanslar var: "Nazirlər Kabineti hər hansı qərarlar verəndə, yarımçıq qərarlar verir. Qərarı verirlər, ardınca ona şərh verirlər. Məsələn, qərarda mart ayının 29-na qədər sifariş edilmiş maşınların taleyinin necə olacağı ilə bağlı heç bir məlumata yer verilməmişdi. Sonradan bu barədə şərh verdilər ki, qərardan əvvəl avtomobil sifariş vermiş insanlar nəzərə alınacaq".

**E.Muradlı həmçinin qeyd edib ki, qərarda olan daha bir boşluq isə ondan ibarətdir ki, bu addımın avtomobil parkının yenilənməsi üçün olduğu deyilir. Lakin bu qərarla avtomobil parkının yenilənməsindən söhbət gedə bilməz:** "Nəticə etibarı ilə istismar müddəti 10 ili keçməyən avtomobillərin qiymətində artım baş verəcək. Hər kəsin də istehsal ili 10 il olan maşını əldə etmək imkanı yoxdur. Ola bilər ki, Çinin bir neçə il işlənmiş bəzi avtomobil modellərini münasib qiymətə əldə etmək mümkün olsun. Ancaq insanlar ənənəvi və məşhur brendlərə daha çox öyrəşiblər. Çünki onların istismar şərtlərinə bələddirlər. Ehtiyat hissələri sıradan çıxdıqda asanlıqla əldə edə bilirlər və s. Belə olan halda insanlar daxildə köhnə avtomobilləri təmir edib, bir-birilərinə satacaqlar. Ölkəyə gətirilən avtomobillərin də sayı azalacaq. Bu da ticarət dövriyyəsinin aşağı düşməsinə səbəb olacaq.

Bəzi ölkələrin avtomobil parkının yenilənməsi üçün atdıqları addımlar bizdə də tətbiq edilə bilər. Onlarda belə qadağalar qoyulan zaman, stimullaşdırıcı addımlar da atılır. İli yeni olan avtomobillərin ölkəyə gətirilmə rüsumları azaldılır. Bizdə isə qadağa qoyulur və insanlar taleyin ümidinə buraxılır.

**Nihad Kərimli**

# Aprelin 9-da IX siniflər üçün buraxılış imtahanı keçiriləcək



**Məlum olduğu kimi, aprelin 9-da Bakı şəhərinin Nəsimi, Nərimanov, Sabunçu, Səbail, Xətai rayonlarında, Gəncə (I hissə), Lənkəran, Şəki şəhərlərində, Astara, Ağdam, Ağcabədi, Ağsu, Biləsuvar, Daşkəsən, Xızı, İmişli, Kürdəmir, Qusar, Saatlı, Şabran, Samux, Şəmkir, Siyəzən və Zərdab rayonlarında Dövlət İmtahan Mərkəzi tərəfindən ümumi (9 illik) orta təhsil səviyyəsi üzrə buraxılış imtahanları keçiriləcək.**

Dövlət İmtahan Mərkəzindən Trend-ə verilən məlumata görə, buraxılış imtahanında iştirak edəcək şagirdlər https://eservices.dim.gov.az/sagirdbv/ linkindən istifadə etməklə özlərinin imtahana buraxılış vərəqəsini, təhsil müəssisələri isə bütün şagirdlərin imtahana buraxılış vərəqələrini çap edə bilərlər.

Buraxılış vərəqəsini çap etmək üçün kompüterə Adobe Reader proqramı quraşdırılmalıdır və brauzerin "Pop-up blocked" sahəsindən qeyd işarəsi götürülməlidir. Şəxsiyyəti təsdiq edən sənədində şəkli olmayan şagirdlər buraxılış imtahanı üçün təhsil müəssisəsi tərəfindən verilməli olan arayışı DİM-in saytından yükləyə bilərlər.

Şagirdlər bitirdikləri məktəbin yerləşdiyi yerə uyğun rayonda (şəhərdə) imtahan verirlər. Məcburi köçkün rayonlarının məktəblərində təhsil alan şagirdlər bitirdikləri təhsil müəssisəsinin yerləşdiyi şəhər və rayonların imtahan gününə uyğun tarixdə imtahan verirlər.

Gəncədə yerləşən məktəblərin şagirdlərinin imtahanı 2 imtahan gününə bölünüb. Bu hal yuxarıda müvafiq olaraq, "hissə" adlandırılıb və hiperlink qoyulub. Linkin üzərinə basdıqda qeyd olunan tarixdə hansı məktəblərin şagirdlərinin imtahan verməsi haqqında məlumat açılır. Digər məktəblərin şagirdləri aprelin 16-da imtahan verəcəklər.

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

**Azərbaycan Respublikasının dünya birliyinə inteqrasiyası, region ölkələri və digər dövlətlərlə, beynəlxalq təşkilatlarla əməkdaşlığının inkişaf etdirilməsi;**

# Siyasi, iqtisadi, mədəni əlaqələr daha da güclənəcək

## Azərbaycanın İsraildə səfirlik açması hər iki dövlət üçün mühüm əhəmiyyət kəsb edir




**Martın 29-da İsrailin Təl-Əviv şəhərində Azərbaycan səfirliyinin təntənəli açılış mərasimi keçirildi. Açılışda Azərbaycanın xarici işlər naziri Ceyhun Bayramov, israilli həmkarı Eli Kohen və deputatlar iştirak ediblər. Xatırladaq ki, 2022-ci ilin sonunda Milli Məclis Azərbaycanın İsraildə səfirliyinin təsis edilməsi haqqında qanun layihəsini qəbul edib. Noyabrın 26-da Prezident İlham Əliyev "Azərbaycan Respublikasının İsrail dövlətində Səfirliyinin təsis edilməsi haqqında" qanunu təsdiqləyib.**

Prezident İlham Əliyevin yanvarın 11-də imzaladığı sərəncamı ilə Muxtar Məmmədov Azərbaycanın İsraildəki fövqəladə və səlahiyyətli səfir təyin edilib. M.Məmmədov bu il martın 26-da etimadnaməsini İsrail Prezidenti İshaq Hersoqa təqdim edib. Ekspertlərə görə, İsraildə səfirliyimizin açılması Azərbaycanın xarici siyasətində çox əlamətdar hadisədir. Bu, iki ölkə - Azərbaycan və İsrail arasında münasibətlərin daha da dərinləşməsi, yeni strateji səviyyəyə çatdırılması üçün böyük əhəmiyyət kəsb edəcək. İkitərəfli əməkdaşlığın zəruri sahələrində mühüm qərarların qəbul edilməsinə imkan yaradacaq. İsrail 1991-ci il dekabrın 25-də Azərbaycanın müstəqilliyini rəsmən tanıyan ilk dövlətdən biri olub. 1992-ci ilin aprelindən iki ölkə arasında diplomatik münasibətlər qurulub. Azərbaycanda, əsasən də Bakıda və Quba rayonundakı Qırmızı qəsəbədə 30 min yəhudi yaşayır. Ölkəmizdə uzun illərdir İsrail səfirliyi uğurla fəaliyyət göstərir. Vacib məqam odur ki, İsrail bizim strateji tərəfdaşımızdır, bizi bir-birimizə ciddi iqtisadi, o cümlədən enerji, hərbi əlaqələr bağlayır. Ümumiyyətlə, iki ölkə bir çox məsələlərdə bir-birini dəstəkləyir. Xatırladaq ki, martın 30-da xarici işlər naziri Ceyhun Bayramov İsrailə rəsmi səfəri çərçivəsində İsrail Prezidenti İshaq Hersoq tərəfindən qəbul edilib. Görüşdə Azərbaycan və İsrail arasında ikitərəfli və çoxtərəfli əməkdaşlıq gündəliyinin aktual məsələləri, o cümlədən regional və beynəlxalq vəziyyət müzakirə olunub. Nazir Ceyhun Bayramov siyasi, iqtisadi, təhlükəsizlik, mədəniyyət, təhsil, yüksək texnologiyalar, kibertəhlükəsizlik və s. sahələrdə inkişaf edən ikitərəfli əməkdaşlıq gündəliyindən məmnunluqla bəhs edib. Münasibətlərin inkişafında Azərbaycan və İsrail liderləri arasındakı sıx təmasların mühüm rol oynadığını qeyd edib. Azərbaycan və İsrail arasında keçirilən müntəzəm siyasi məsləhətləşmələrin və yüksəksəviyyəli səfərlərin iki ölkə arasında əlaqələrin daha da inkişaf etdirilməsi üçün əhəmiyyətli rol oynadığı vurğulanıb. Nazir Ceyhun Bayramov, həmçinin qarşı tərəfi postmünaqişə dövründə regionda mövcud vəziyyət, Azərbaycanın işğaldan azad olunmuş ərazilərdə apardığı genişmiqyaslı bərpa və quruculuq barədə ətraflı məlumatlandırıb. Bununla yanaşı, Ermənistan tərəfindən törədilən hərbi-siyasi təxribatlar, öz öhdəliklərindən boyun qaçırmaqla danışıqların imitasiyası, mina təhdidini davam etdirilməsi, öhdəliklərinə uyğun olaraq silahlı qüvvələrini Azərbaycandan çıxarmadığı barədə məlumatlar təqdim olunub. Ermənistanın son həftələrdə təcavüzkar ritorikanı və fəaliyyəti davam etdirdiyi diqqətə çatdırılıb. Azərbaycanın bölgədə sülh və təhlükəsizliyin bərqərar edilməsi, habelə erməni sakinlərin reinteqrasiyası istiqamətində qərarlı olduğu bildirilib. Prezident İshaq Hersoq, İsrailin öz strateji tərəfdaşı qismində Azərbaycanla münasibətlərin inkişafına önəm verdiyini diqqətə çatdırıb. İki ölkənin xalqları arasında mövcud olan dostluq və həmrəylik ənənələrinin bu gün ölkələrimiz arasında inkişaf edən münasibətlərin mühüm tərkib hissəsi olduğu bildirilib. Azərbaycanda yaşayan yəhudi icmasının ikitərəfli münasibətlərə verdiyi müsbət töhfə məmnunluqla qeyd edilib. Azərbaycanın İsraildə səfirliyinin açılmasının münasibətlərin daha da inkişafında əhəmiyyətli rol oynayacağına dair əminlik ifadə edilib. Görüşdə həmçinin qarşılıqlı maraq doğuran regional məsələlər ətrafında fikir mübadiləsi aparılıb. Almaniyanın Bonn Universitetinin siyasi elmlər və beynəlxalq münasibətlər üzrə fəlsəfə doktoru Saymon Tsipis deyib ki, Azərbaycanın İsraildə səfirliyinin açılması əməkdaşlığı daha da səmərəli edəcək: "Ötən gün Azərbaycanın İsraildə səfirliyinin açılması ikitərəfli əməkdaşlığın daha səmərəli olması üçün zəruri məsələdir". O vurğulayıb ki, Azərbaycan və İsrailin əməkdaşlıq edə biləcəyi bir çox sahələr var. Tsipis əlavə edib ki, məsələn, yüksək texnologiyalar sahəsi ən vacib istiqamətlərdən biri ola bilər: "İsrail xüsusilə, kibertəhlükəsizlik və vacib infrastruktur sahəsində yüksək texnoloji həllər və proqram təminatının hazırlanması və tətbiqi üzrə dünyanın aparıcı ölkələrindən biridir. Beləliklə, Azərbaycan müasir dövlət kimi inkişaf etməkdə, İsrail isə məhsullarını ixrac etməkdə maraqlıdır". Politoloq qeyd edib ki, ikitərəfli münasibətlərin inkişafında İsrail ilə Azərbaycan arasında hərbi-texniki əməkdaşlıq da mühüm yer tutur. Onun sözlərinə görə, əməkdaşlığın digər mühüm istiqaməti isə terrorçuluğa qarşı birgə mübarizədir: "İsrailin terrorçuluğa qarşı mübarizədə böyük təcrübəsi var. Bu böyük təcrübə Azərbaycan hakimiyyəti ilə tərəfdaşlıq üçün əlverişli sahə kimi qiymətləndirilə bilər".

**Milli Cəbhə Partiyasının sədr müavini Tural İrfan "Şərq"ə bildirib ki, Azərbaycan Respublikasının İsrail dövləti ilə əlaqələri müstəqilliyimizin erkən çağlarından mövcuddur və Azərbaycanın müstəqilliyini tanıyan ilk dövlətlərdən biri də İsraildir. Analitik deyib ki, İsrailin Azərbaycanda səfirliyi olmasına baxmayaraq, bizim İsraildə səfirliyimiz yox idi:** "Qardaş Türkiyə Cümhuriyyətinin də İsraillə tarixən əlaqələri sıx və isti olub. Sadəcə arada bir qədər müyyən anlaşmazlıqlar oldu və soyuqluq müşahidə olundu. Lakin artıq müxtəlif yönlərdə əlaqələr, razılaşmalar münasibətləri dəmək olar ki, tamamilə səhmana saldı. Şübhəsiz ki, bu da Azərbaycanla İsrail arasındakı əlaqələrin daha da yaxınlaşmasına təkan verdi. Artıq İsraillə əvvəllər soyuq münasibətdə olan bir çox ərəb ölkələrinin də əlaqələri yoluna düşür. Bu əlaqələr siyasi əlaqələrdən əlavə iqtisadi, mədəni əlaqələrdir.

Azərbaycanın İsraildə səfirlik açması hər iki dövlət üçün mühüm əhəmiyyət kəsb edir. Hərbi, siyasi, iqtisadi və digər sahələrdə hər iki ölkə arasında yeni müqavilələr, razılaşmalar gözlənilir. Azərbaycan öz xarici və daxili siyasətini hansısa qüvvənin, yaxud hansısa dövlətin istəyinə, razılığına görə müəyyən etmir. Ona görə də İsrail ilə əlaqələrinə görə də Azərbaycanı heç kəs ittiham edə bilməz. Bəziləri özləri xoflanırlar. Sadəcə olaraq Azərbaycanın İsrail kimi dövlətlərlə əlaqələrinin inkişafı sayəsində daha da qüdrətlənəcəyindən və əsasən də regionda aparıcı gücə çevriləcəyindən narahatdırlar. Halbuki bu da heç kəsin ziyanına və əleyhinə deyil. Əksinə, Azərbaycanın güclənməsi digər region ölkələr üçün də faydalıdır. Ona görə ki, Azərbaycan şəffaf, təhlükəsiz, faydalı siyasət yürüdür.

İranın Ermənistanla uzun müddətdir sıx əlaqələri var və müharibə dövründə də işğalçıya hər zaman yardım edib, siyasi, hərbi, iqtisadi dəstək verib. Baxmayaraq ki, bu, aqressoru daha da işğalında ruhlandırıb, daha da fəallaşdırıb".

**T.İrfan vurğulayıb ki, dostluq münasibətlərinə, qonşuluq əlaqələrinə, müsəlmanlığa önəm vermədən Ermənistan ilə əlaqələri quranda, inkişaf etdirəndə biz də narazı qalmışdıq, ancaq İran öz bildiyini etdi:** "Təəssüf ki. İndi Azərbaycanın İsrail, ABŞ və yaxud digər Avropa dövlətləri ilə daha sıx əlaqələr qurması da heç kəsi narahat etməməlidir. Əsassız ittihamlarla siyasət olmur. Azərbaycan daha da güclənir, inkişaf edir. Ona görə Azərbaycana meyillənən, əlaqələrini genişləndirmək istəyən dövlətlər də artacaq. 21-ci əsrdə işğaldan torpaq azad etmək hər dövlətin, hər siyasətçinin işi deyil. Lakin Azərbaycan və Azərbaycanın güclü lideri bunu bacardı. İran Azərbaycanı həmişə zəif, torpaqları işğal olunmuş görmək istəyir. Qarabağın azadlığını da ona görə həzm edə bilmir. Hər nə qədər manеələr yaratmağa çalışsalar da, Azərbaycan öz siyasi kursunu davam etdirir. İsrail kimi qüdrətli dövlətlərlə əlaqələrini daha da gücləndirir. Azərbaycanda qədim dövrdən bəri yəhudi xalqının nümayəndələri yaşayır, həmişə də dövlətə sadiq olublar. Həmçinin İsraildə də azərbaycanlılar yaşayır. Hər iki dövlət arasında uzun illərdən bəri gediş-gəliş, mədəni, iqtisadi və digər əlaqələr mövcuddur. Səfirliyin açılması da bu əlaqələri daha da gücləndirəcək".

**İsmayıl Qocayev**

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin maliyyə dəstəyi ilə çap olunub



# Hazırlıqlı olmalıyıq

## İran-Azərbaycan münasibətlərində ziddiyyətlər artır

**"İranın Azərbaycana mövqeyi əvvəldən bəlli idi. Rəsmi Tehran elə ölkəmizin müstəqillik əldə etdiyi ilk illərdən anti-Azərbaycan xətti yeridirdi".**

Bunu "Şərq"ə siyasi şərhçi Həşim Səhrablı Azərbaycan MN-in İran İslam Respublikası Ordusunun Quru Qoşunlarının Komandanı Kiomərs Heydərinin Azərbaycana münasibətdə çirkin iftira və böhtan xarakterli fikirlərinə münasibət bildirməsindən danışarkən deyib. Onun sözlərinə görə, sadəcə bunu ilk illərdə ermənilərin əli ilə edirdilər: "Çünki bir vaxtlar Azərbaycanda olan hərc-mərclik, siyasi xaos kimi neqativ hallar Ermənistana, İrana, anti-Azərbaycan qüvvələrinə imkan verirdi ki, ermənilər qədər zəif və gücsüz toplum ölkəmizə hərbi müdaxilə etsinlər. Həmçinin işğal niyyətlərini həyata keçirsinlər.

Rəsmi Tehran da ilk başlarda erməni kartını istifadə edərək, anti-Azərbaycan siyasətini gizlətmişdi. Eyni zamanda düşmən ölkə üzərindən dövlətimizə qarşı mövcud niyyətlərini həyata keçirməyə cəhd göstərirdilər. Amma 2020-ci ildə Vətən müharibəsində əldə etdiyimiz qələbədən sonra bölgədə "status-kvo" dəyişdi. O həddə çatdı ki, artıq İran və digər bütün anti-Azərbaycan qüvvələri öz xarici siyasət xətlərini də dəyişdirmək məcburiyyətində qaldılar.

Məhz bu addımların nəticəsi olaraq, artıq görürük ki, İran da daxil olmaqla həmin qüvvələr açıq-aşkar Azərbaycana qarşı məqsədlərini, ölkəmizin zəifləməsinə və vurulmasına "istiqamətlənmiş" addımlarını reallaşdırırlar. Bugünkü gərginliklərdə də, İranın Azərbaycana açıq-aşkar iftiralar atması da məlum prosesin məntiqi nəticəsi və davamıdır. Bundan sonra da bənzər cəhdlər İran tərəfindən davam edəcək. Artıq diplomatik və siyasi bir müharibə başlayıb.

Amma əslində hadisələr bu çərçivəni də aşıb. Məsələn, Azərbaycanın İrandakı səfirliyinə terror hadisəsi, eyni zamanda deputat Fazil Mustafanın güllələnməsi də bunun sübutudur. Analoji iddialar və baş verən reallıqlar göstərir ki, artıq qarşıdurmalar daha ciddi müstəviyə keçib. İrəlidə hərbi qarşıdurmanın olması kimi ehtimallar da var.

Lakin yaxın dövrlərdə İran-Azərbaycan münasibətlərində ziddiyyətlərin, çəkişmələrin daha da artmasını, gərginləşməsini görə bilərik. Eyni zamanda ölkəmizə qarşı bu və ya digər formada yaşadığımız, ondan daha ciddi terror niyyətləri, hücumlarını da görə bilərik. Buna görə də hazırlıqlı olmaq lazımdır. İndiki vaxtda Azərbaycan çox ciddi ümumi və geosiyasi proseslərə qoşulur. Burda çox yaxşı təmsil olunur. Əldə etdiyimiz uğurlar çox əhəmiyyətlidir. Təbii ki, anti-Azərbaycan qüvvələri bunu istəmir. Ona görə də bizə qarşı hər şəkildə təxribatlar gözlənilir".

**Sücayət Mehti**

# Övladlığa götürmə məsələləri artıq dövlət nəzarətindədir

## Körpələrin təhvil veriləcəyi şəxslər güvənli, etibarlı ailə olmalıdır

**Sosial Xidmətlər Agentliyinin Övladlığagötürmə departamentinin müdiri Cavid Şahmalıyev övladlığagötürmə ilə bağlı müraciət edənlərin sayını "Sosial saat"da açıqlayıb. C.Şahmalıyev qeyd edib ki, 2020-ci ildən bu günə qədər 1002-dən çox şəxs övladlıq götürməyə görə müraciət edib. O bildirib ki, son 3 ildə 387 uşaq övladlığa verilib:**

"Onlardan 152-si 0-1 yaş arası, 83-ü 2-3, 63-ü 4-6, 63-ü 6-11, 26-sı isə 12-18 yaş arası uşaqlardır. Təəssüf ki, bu günə qədər övladlığa verilən uşaqlar arasında əlilliyi olan uşaq olmayıb. Bizdə əlilliklə bağlı ciddi miflər var. Valideynlər elə bilirlər ki, əlillik idarəolunmaz prosesdir. Halbuki bu, belə deyil. Biz beynəlxalq təcrübələri öyrənmişik. Əlil uşaqları övladlığa götürən ailələrə ayda 600 manat müavinət verilir. Bundan başqa, uşağın özünün də əlilliyə görə pensiyası olur. Valideynlər bilsin ki, əlil uşağın övladlığa götürülməsinə görə dövlət tərəfindən ailəyə təxminən 1000 manat ödənilir".

**"Təmiz Dünya" Qadınlara Yardım İctimai Birliyinin sədri Mehriban Zeynalova "Şərq"ə açıqlamasında qeyd etdi ki, ailələrin övladlıq götürmə istəkləri xalqımızın xeyirxahlığı, ailə ənənələriylə bağlıdır:**

- Bütün dövrlərdə kimlərsə övladlığa uşaq götürüb, övladı olmayan cütlüklərə yaxın qohumlar öz övladlarını verib. Bəzən kasıb bir ailənin övladına başqa bir ailə qəyyumluq edib, uşağın təhsil alması, normal şəraitdə böyüməsi naminə gətirib onu öz evində böyüdüb, saxlayıb. Belə əhvalatlar çoxdur.



Müsbət hal həm də budur ki, bu məsələ artıq dövlət nəzarətindədir. Övladlığa götürmə məsələlərinə hazırda Əmək və Əhalinin Sosial Müdafiəsi nəzdində Sosial Xidmətlər Agentliyi baxır. Körpələrə sahib çıxmaq istəyənlər DOST Mərkəzinə də müraciət edirlər. Bunu zaman tələb edir. Çünki uşaqların insan ticarətinə cəlb edilməsi halları var, bütün dünyada insan ticarəti qlobal problem kimi dayanır. Uşaqların istismarı da ciddi problemdir. Bəzən övladlığagötürmə üçün müraciət edənlər prosedurun mürəkkəbliyindən, gec cavab almalarından narahat olurlar. Amma dünyadakı mövcud durumu nəzərə alsaq, övladlığaverilmə məsələsindəki ciddiyyəti anlamış olarıq. Müraciət etmiş ailələrin, şəxslərin araşdırılması mütləqdir. Kimdirlər, cəmiyyətdə hansı sosial təbəqəyə mənsubsurlar, öz övladları varmı, onlarla necə davranırlar, niyə əlavə övlad istəyirlər, ya da övladı olmayan ailədirsə, niyə övladları olmayıb, burada bioloji səbəblərmi var, yoxsa istək olmayıb? Əgər valideyn olmağa istək olmayıbsa, niyə övlad istəyirlər? Yəni insanların istəklərinin haradan, nədən qaynaqlandığı mütləq araşdırılmalıdır.

**M.Zeynalova qeyd etdi ki, valideyni olmayan uşaqların övladlığa verilməsində əsas məqsəd ailə institutunun möhkəmlənməsi, uşaqların ailə ortamında böyüməsini təmin etməkdir:**

- Uşaq ailədə böyüməli, ailənin içində olmalıdır. Fərdin tam formalaşması üçün ailə ortamı vacibdir. Yarımçıq ailələrdə böyüyən uşaqlarda natamamlıq kompleksinə rast gəlinir. Uşaq həmişə istəyir ki, anası da, atası da olsun. Bu, adi insani keyfiyyətdir. Sığınacaqda işlədiyimdən mən bunu daha aydın görürəm. Uşaqlar heç vaxt ayrı-seçkilik etmir, anam var, atam olmasa da olar və ya başqa cür söz söyləmir. Onlar ananı da, atanı da eyni səviyyədə arzulayırlar. Ona görə də övladlığa verilmə məsələsində müraciət edən ailələrin tam olması əsas şərtlərdən biridir. Amma ailələr mütləq araşdırılmalı, körpə kimə, hansı ailəyə təhvil veriləcək, ailənin maddi durumundan əlavə, həmin ailədə necə uşaq böyüyür, uşaqlara nəzarət varmı, düzgün tərbiyə alırlarmı, zorakılıq halları qeydə alınıb, alınmayıb, qohumlardan, qonşulardan, ailə başçılarının çalışdığı müəssisədən onların sosial-psixoloji durumu da öyrənilməlidir. Körpələrin təhvil veriləcəyi şəxslər güvənli, etibarlı ailə olmalıdır. İnanıram ki, Sosial Xidmətlər Agentliyi fəaliyyətini məhz bu cür qurub.

**Məlahət Rzayeva**

## Əlavə müəyyən vəzifə maaşı təyin edilməlidir

Müəllimlərin bir stavka dərs yükü yenidən 12 saata salınmalıdır



**"Müəllimlərin dərs yükü tədrisin keyfiyyətinə bilavasitə ciddi şəkildə təsir göstərir. Amma müəllimlər sosial-iqtisadi vəziyyətlərinə görə çox dərs yükünə razı olurlar".**

*Bu sözləri "Şərq"ə açıqlamasında təhsil eksperti Kamran Əsədov deyib.*

2016-cı ildə müəllimlərin bir stavka dərs yükünün 12 saatdan 18 saata qaldırılmasının yanlış qərar olduğunu vurğulayan ekspert hesab edir ki, müəllimlərin bir stavka dərs yükü yenidən 12 saata salınmalı və müəllimlərə dərs stavkasından əlavə müəyyən vəzifə maaşı təyin edilməlidir: "Yəni bütün müəllimlər üçün sabit vəzifə maaşı məsələn, 300-500 manat müəyyən edilməlidir, əlavə olaraq da dərs yükünə görə həmişəki maaşları əlavə olunmalıdır.

Müəllimin dərs yükü ölkələr arasında fərqlənir, lakin əsasən müəllimlər üçün müəyyən edilmiş maksimum dərs yükü var. ABŞ-də Milli Təhsil İnstitutunun məlumatına görə, orta məktəblərdə müəllimlər üçün rəsmi olaraq təyin edilmiş dərs yükü həftədə 25-30 saat arasında dəyişir. Birləşmiş Krallıqda isə müəllimlərə həftədə 19 saata qədər dərs verilməsi məsləhət görülür.

Türkiyədə dərs yükü 24 saat, Almaniyada isə 27 saata qədər olur.

Azərbaycanda isə müəllimlərin dərs yükü əsasən həftədə maksimum 36 saat olsa da, daha 12-24 saat arasında dəyişir. Lakin bu rəqəm ölkədəki təhsil müəssisələrinə və fənn növlərinə görə dəyişə bilər. Düşünürəm ki, həftədə 24-36 saat dərs deyən müəllimin dərs keyfiyyəti ilə, 12-18 saat dərs deyən müəllim arasında ciddi keyfiyyət fərqi var".

**Şəymən**

**Xarici vətəndaşların Azərbaycanda bank kartları ilə ödəmələri azalıb. 2023-cü ilin yanvar-fevral aylarında əcnəbilər Azərbaycanda bank kartları vasitəsilə 333.8 mln. manatlıq əməliyyat aparıblar. Bu barədə "APA-Economics" İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzinin "İxrac İcmalı"na istinadən xəbər verir. Məlumata görə, bu da illik müqayisədə 14.7 faiz azalma deməkdir.**



# Ölkədə makro-iqtisadi pozuntu baş verməyib

## Qarşıdakı aylarda xarici vətəndaşların bank kartı vasitəsilə ödəmələrində əməlli artım olacaq

Qeyd edilir ki, 2022-ci ilin yanvar-fevral aylarında xarici vətəndaşların bank kartları vasitəsilə ölkəmizdə apardıqları əməliyyatların həcmi 391.2 mln. manat təşkil edib. Azərbaycanda əhalinin banklardakı əmanətləri də azalıb. Əhalinin banklardakı əmanətləri bu il mart ayının 1-nə 11 901.8 milyon manat təşkil edib. "APA-Economics" Azərbaycan Mərkəzi Bankına istinadən xəbər verir ki, bu rəqəm fevralın 1-nə olan göstəricidən 0,2 faiz azdır. Ötən ilin eyni dövrü ilə müqayisədə əhalinin banklardakı əmanətləri 19 faiz və ya 1 mlrd. 865,1 milyon manat artıb.

**İqtisadçı Fuad İbrahimov "Şərq"ə açıqlamasında mövcud vəziyyəti şərh edərkən bildirib ki, xarici vətəndaşların bank kartı ilə ödəmələrində azalmanın ciddi səbəbi yoxdur:**

- Bu o demək deyil ki, ölkədə makro-iqtisadi pozuntu baş verib, iqtisadi tarazlıq pozulub, ya da xaricilər daha alış-veriş etmirlər. Belə deyil. Fikir verirsinizsə, rəqəmlərdə fərqlilik azdır. Ümumiyyətlə, az rəqəmlərdə faiz nisbəti həmişə çox ifadə olunur, buna görə belə təəssürat yarana bilər ki, xarici vətəndaşların bank kartı vasitəsilə ödəmələrində azalma var. Əslində isə bunlar kiçik rəqəmlərdir və ciddi problem də yoxdur. Yeri gəlmişkən, bu ilin başlanğıcından Azərbaycan beynəlxalq tədbirlərə daha çox ev sahibliyi edib, yaxın günlərdə "Formula-1" yarışları başlayacaq, sərhəd-keçid məntəqələrində COVID pasportu tələbinin aradan qaldırılması da qarşıdakı aylarda ölkəyə daha çox əcnəbi vətəndaşın gəlməsnə şərait yaradacaq. Bu o deməkdir ki, qarşıdakı aylarda xarici vətəndaşların bank kartı vasitəsilə ödəmələrində əməlli artım olacaq. İndi bu statistik hesabatı hazırlayıb təqdim ediblər, lakin hesab edirəm ki, bu, düzgün tədqiqat metadologiyası deyil. Bunlar hamısı riyazi üsullarla rəqəmsal ifadədir.

**Əhalinin banklardakı əmanətlərinin azalmasına gəlincə, iqtisadçı hesab edir ki, burada da göstərici kiçikdir:**

- 0,2 faiz kiçik göstəricidir. Göstəricinin azalması fevral ayından mart ayına keçiddə baş verib. Vətəndaşların bu müddət ərzində depozit müqavilələrinin müddəti bitib və bundan sonra geri çəkilmə başlayıb. Amma ötən ilə nisbətdə 19 faiz artım olduğu bildirilir. Ümumiyyətlə, hesablamalar aparılarkən aylıq yox, illik göstəricilərə üstünlük verilməlidir. İllik göstəricilər daha önəmlidir.

**Məlahət**

## Əhalinin banklardakı əmanətlərinin həcmi azalıb

Əsas səbəb banklardakı depozit gəlirlərinin ötən aydan etibarən vergiyə cəlb edilməsi ilə bağlıdır




**"2021-ci ilin avqust ayından sonra ilk dəfə əhalinin banklardakı əmanətlərinin həcmində azalma qeydə alınıb".**

Bu barədə millət vəkili Vüqar Bayramov deyib. Deputat bildirib ki, Mərkəzi Bankın məlumatına görə, bu ayın 1-də əhalinin banklardakı əmanəti əvvəlki aydakı 11 milyard 928 milyon manatdan 11 milyard 901 milyon manata düşüb: "Bu isə o deməkdir ki, ötən ay ərzində əhalinin əmanətləri 27 milyon manat azalıb. Əhalinin əmanətlərinin azalmasının əsas səbəbi banklardakı depozit gəlirlərinin ötən aydan etibarən vergiyə cəlb edilməsi ilə bağlıdır. Ümumi depozit faizlərində hiss edilən artımlar reallaşmadığı üçün müddəti başa çatmış bəzi depozitlərin vaxtının uzadılmaması və ya geri götürülməsi qeydə alınıb. Monitorinqlərə görə, bu, daha çox fevral ayının ilk yarısına təsadüf edib. Daha sonra prosesin stabilləşməsi müşahidə olunub.

Bu baxımdan, növbəti aylarda əmanət həcmlərindəki artım tempinin yenidən bərpa ediləcəyi gözlənilir. Bununla yanaşı, əmanət həcmlərindəki azalmalar bir daha təsdiq edir ki, bank sektorunda iştirakçılar ilə birbaşa kommunikasiyanın daha da gücləndirilməsi vacibdir. Bu işin yalnız Mərkəzi Bank tərəfindən deyil, eyni zamanda ayrı-ayrılıqda hər bir bank tərəfindən həyata keçirilməsinə ehtiyac var".

**İsmayıl**

## Meyxanaçı Kərimin vəziyyəti ağırdır



**Meyxanaçı Kərimin vəziyyəti stabil ağır olaraq qalır.**

Bu barədə Lent.az-a onun dostu, meyxanaçı Ağamirzə məlumat verib.

"İnsanlar Kərimi sevir, unutmurlar. Buna görə öz adımdan, ailəsi adından hamıya təşəkkür edirəm. Kərimin vəziyyətində təəssüf ki, yaxşılaşma yoxdur. Vəziyyəti stabil ağır olaraq qalır. Allah heç kimi belə ağır imtahanla sınağa çəkməsin. Danışa bilmir, çox zaman ətrfındakıları tanımır.",- o qeyd edib.

Meyxanaçı bildirib ki, ailəsi yaxın adamlardan başqa heç kimə Kərimlə görüşməyə icazə vermir. Bu da anlaşılandır. "Adam ağır yataq xəstəsidir. Bu vəziyyətdə kiminsə gözünə görünmək istəmirsə, bunu anlamaq lazımdır".

**Elan**

Hacıyeva Aytac Cavidan qızına Bakı şəhəri, Nəsimi rayonu, Əlibəy Hüseynzadə küçəsində istifadədə olan 0.1624 ha torpaq sahəsində yerləşən 84 nömrəli, 13 mərtəbəli binanın 1-ci girişində, 7-ci mərtəbəsində, 174,8 kv.m. ümumi, 110,0 kv.m. yaşayış sahəsindən ibarət 4 otaqlı 18 nömrəli mənzilin, daşınmaz əmlakın dövlət reyestrində 975 nömrəli reyestr kitabının 87416 nömrəli vərəqində qeydiyyata alınmış Çıxarış itdiyi üçün etibarsız sayılır.

# Elon Maskın çağırışları reallığa uyğun deyil

## Süni intellektin inkişafından ehtiyat etmək absurddur

**Hazırda 4-cü və iddialara görə, sonuncu "sənaye inqilabı"nı yaşamaqdayıq. Texnologiyalar əvvəlcə fiziki əməyi əvəz etdi. İndi isə zehni əmək də əl dəyişdirir. İddialara görə, yaxın 5-10 il ərzində süni intellekt istehsal, xidmət, xüsusilə idarəetmə, hüquq, proqramlaşdırma sahələrində böyük ölçüdə işsizliyin yaranmasına səbəb olacaq. Sözsüz ki, bu müddət daha az da ola bilər.**

Süni intellektin sayəsində hətta buankı fəaliyyətimizin belə zamandan geri qaldığı iddia edilir. Süni İntellekt pandemiya, nüvə müharibəsi, iqtisadi böhranlardan belə daha təhlükəli bir tətbiq kimi dəyərləndirilir. Ən dəhşətlisi isə odur ki, bu proses idarə edilə bilmir. Daha dəqiq desək, müasir insan özü yaratdığı Sİ-nin sürətinə çata bilmir. Süni intelleklərin növbəti müharibələrdə geniş istifadə edilməsi də ən çox qorxu yaradan məsələlərdəndir. Hətta avtoritar rejimlərin kütləvi nəzarət məqsədilə süni intellekt tətbiqlərindən istifadəsi belə istisna edilmir.



Qeyd edək ki, dünyada süni intellekt texnologiyalarının inkişafı sürətlənir. Hazırda ABŞ süni intellekt layihələrinə investisiyaların məbləği və imzalanmış sazişlərin sayına görə liderdir. İkinci və üçüncü yerlərdə isə Çin və Böyük Britaniya qərarlaşıb.

Bununla belə süni intellektin çox sürətli inkişafı müasir dövrün bir sıra alim və İT sahibkarlarında bəşəriyyətin gələcəyi barədə narahatçılıq yaradıb.

Biznes liderlərinin özlərinin belə süni intellekt məhsullarına reaksiyaları müxtəlifdir.

Bill Geyts süni intellektin "bu onillikdə ən böyük şey" olduğunu deyib. Endi Casi "generativ süni intellekt ilə nələrin mümkün olduğunu" görməyə həvəsli olduğunu söyləyib. Elon Mask isə Aİ-nin "sivilizasiyanın gələcəyi üçün ən böyük risklərdən biri" olduğunu bildirib.

Hətta Mask cəmiyyətə yarada biləcəyi təhlükə səbəbindən yeni süni intellekt sistemlərinin tətbiqini dayandırmağa çağırıb.

Əslində E.Mask süni intellektin çox sürətli inkişafı ilə bağlı narahatlığını heç vaxt gizlətməyib. Belə ki, o, əvvəlki müsahibələrində də bildirib ki, bu texnologiya nüvə silahından da daha təhlükəli ola bilər və insanlar bu gün süni ağlın inkişaf potensialını qiymətləndirmirlər. "Şərq" xarici agentliklərə istinadən xəbər verir ki, 1000-dən çox məşhur şəxs süni intellektlə bağlı tarixi bir məktub imzalayıb. Elon Musk, tədqiqatçıAlphabet DeepMind, Stiv Vozniak, süni intellekt sahəsində tanınmış Yosua Bengio, Stuart Rassel və 1000-dən çox şəxsiyyət GPT-4 dil modelindən daha güclü dil modellərinə 6 aya qədər fasilə verilməsini istəyirlər:"Araşdırmalar göstərdi ki, insanlarla rəqabət aparan bu cür süni intellekt sistemləri bütün bəşəriyyət üçün ciddi təhlükə yarada bilər" açıqlamasına OpenAI rəhbəri Sem Altman səssiz qalsa da, 6 ay ərzində yeni requlyasiyaların qəbul olunması məktubla tələb olunur".

Mətn müəlliflərinin iddiasına görə, süni intellekt sistemləri bəşəriyyətin inkişafını dəyişə bilər və buna görə də xüsusi diqqət və resurslarla idarə olunmalıdır. Mətndə deyilib: "Güclü süni intellekt sistemləri yalnız onların işinin təsirinin müsbət olacağına və risklərin idarə oluna biləcəyinə əmin olduğumuz zaman inkişaf etdirilməlidir". Müəlliflərin fikrincə, müasir süni intellekt sistemləri artıq geniş spektrli vəzifələrin həllində insanlarla rəqabət aparmağa qadirdir, ona görə də bəşəriyyət bununla bağlı qəti qərar verməlidir. Çünki əks tədirdə insanlar "sivilizasiyaya nəzarəti itirmək" riski qarşısında qala bilərlər.

Müraciəti imzalayanların rəyinə görə, bu cür qərarların verilməsi "heç kim tərəfindən seçilməyən texnologiya sənayesinin liderlərinə" etibar edilməməlidir.

Mətni imzalayanlar artıq ictimai məkanda fəaliyyətə başlayan, "OpenAI" şirkəti tərəfindən hazırlanmış "GPT-4" modelindən daha güclü ola biləcək istənilən süni intellekt sistemlərini altı ay müddətinə dayandırmağı təklif edirlər.

**Media eksperti Emin Hüseynzadənin "Şərq"ə açıqlamasına görə, indinin özündə belə istifadə etdiyimiz ən qabaqcıl texnologiyalar süni intellektə əsaslanan nailiyyətlərlə təchiz edilib. Ona görə də süni intellektin inkişafından ehtiyat etmək absurddur:** "Elon Maskın süni intellektin təhlükəsi barədə çağırışları reallığa uyğun deyil. Xüsusən də süni intellekt sahəsi ilə maraqlanan insanlar üçün bu cür bəyanatlar birmənalı qarşılanmır. Bu gün insan intellektin maşınlar tərəfindən dəqiq simulyasiya olunması nəticəsində avtomatlaşdırılmış naviqasiya sürətlə inkişaf edir, bir çox firmalar bu sahəyə böyük yatırımlar qoyurlar. Artıq inkişaf etmiş ölkələrdə süni intellektlə idarə olunan nəqliyyat vasitələrini satışa çıxarmaq istəyirlər. O cümlədən də "Tesla" avtomobilləri artıq neçə ildi süni intellektdən istifadə edirlər . Özünü idarə edən avtomobillərin testləri aparılıb və kifayət qədər də uğurlu alınıb. Dünya universitetləri süni intellekt üzrə tələbə qəbulu aparırlar. Hesab edirəm ki, növbəti mərhələdə süni intellekt qurğuları, olqaritmlər daha yaxşı və səmərəli qərarlar verməyə imkan yaradacaq. Bu baxımdan süni intellektin bəşəriyyət üçün təhlükəli olmasına dair verilən proqnozlar qeyri-səmimi görsənir. "Siz bir az gözləyin, biz də gəlib çataq, və yaxud da biz sizi keçək" təsiri bağışlayır. Fikrimcə, süni intellekt tətbiqçilərinin heç biri bu məktuba müsbət cavab verməyəcək".

*Ekspertin sözlərinə görə, süni intellektin insan zəkasını üstələməsi, insanları öz "kölə"sinə çevirəcəyi ilə bağlı ehtimallar da əsassızdır. Axı süni intellekt yaradıcı bir tətbiq deyil:* "O, hazır datalar üzərində işləyir. Süni intellektin sürətli inkişafı insan əməyinə ehtiyacı azaldacaq, bir çox sahələrdə işsizlik faktoru yaradacaq. Süni intellekt zamanla bir neçə peşəni avtomatlaşdıra biləcək və insanların həyata keçirəcəyi işlərin sayı azalacaq. Əlavə olaraq sağlamlıq xidmətlərində süni intellektin töhfələri böyük olacaq, tibbi diaqnozlar daha tez və daha dəqiq qoyulacaq. Daha tez qoyulan diaqnoz sayəsində insanların müalicəsi də asanlaşacaq. Göründüyü kimi, biz heç də "Terminator" filmindəki dəhşətlərlə üzləşməyəcəyik. Süni intellektin dünyanı ələ keçirməsi də mümkünsüz iddiadır, çünki süni intellekt də insanlar tərəfindən kodlaşdırılır və yaradılır. Yəni onun həyatınızdakı rolu özümüzdən asılıdır. Əksinə, bəşəriyyət bu vaxta kimi həll olunmayan problemləri süni intellekt vasitəsilə həll etmək imkanı qazanacaq. Məsələn, bir neçə aya görməli olduğumuz işi süni intellekt bir neçə günə, inkişaf etdikcə hətta bir neçə dəqiqəyə həll edə biləcək".

**E.Hüseynzadənin sözlərinə görə, bu tətbiq bizim üçün böyük görünə bilən işləri qısa zamanda həll etmək funksiyasına sahibdir:** "Yaxın gələcəkdə süni intellektin daha sürətli tətbiqləri və robototexnika yaradılacaq, buna şübhə etmirəm. Amma bu tətbiqlərin insan həyatı və bəşəriyyət üçün faciəyə çevriləcəyini güman etmirəm.

Bu tətbiqlər hər nə qədər "ağıllı" olsa da, insan faktorundan kənar müstəqil datalar yarada bilmirlər. Onlar mövcud datalar üzərində işləyir. İnsanın isə unikallığı ondan ibarətdir ki, öz zəkası hesabına mövcud olmayan ideyalar irəli sürürlər. Bu mənada süni intellektdən qorxmaq lazım deyil. 25 il əvvəl də mobil telefonların insanlar arasındakı ünsiyyəti tamamilə aradan qaldıracağını zənn edirdik. Amma nəticə odur ki, canlı ünsiyyət azalsa da, telefonlar sayəsində insanlar arasında virtual ünsiyyət imkanları daha da genişlənib".

Gələcək müharibələrdə süni intellektdən istifadəyə gəldikdə isə ekspert onsuz da bir neçə ildir müharibələrdə süni intellekdən istifadə olunduğunu deyib.

**Şəymən Bayramova**

**Təsisçi və baş redaktor: Akif Aşırlı**
**Baş redaktorun ı müavini: Yusif Nəzərli**
**Redaktor: Ayyət Əhməd**

**Reportyorlar qrupu:**
**Məlahət Rzayeva, Şəymən Bayramova, İsmayıl Qocayev, Aygün Tahir, Nihat Müzəffər, Sücayət Mehti**

**Texniki heyət:**
**Rüfət Dadaşov, İmamcan Əliyev, İlahə İbrahimova, Nailə Cabbarlı, Fazilə Məmmədova**

**Qəzet "Şərq"in kompyuter mərkəzində yığılır, səhifələnir və "Azərbaycan" nəşriyyatında çap olunur**

**Qəzet Mətbuat və İnformasiya Nazirliyində qeydə alınıb.**
**Lisenziya: 535**
**www.sherg.az**
**e-mail: sherq-1996@mail.ru**

**Ünvan: Mətbuat prospekti, "Azərbaycan" nəşriyyatı.**
**Telefon: 447-32-41**
**538-44-50, internet 538-44-15,**
**İndeks: AZ1073**

**Hesab nömrəsi:**
**"Muğanbank" ASC baş ofis**
**Kod: 506162**
**VÖEN: 1400122681**
**M/H: AZ41NABZ01350100000000018944**
**S.W.İ.F.T.: MUGAAZ22**
**AZM hesab nömrəsi: AZ76MUGA400603803000225AZM00**
**VÖEN 1300414651 İndeks: 0330**

**Tirajı: 1550 Sifariş: 783**

## “Türk Evi" inşa etmək arzusunu gerçəkləşdirib

### Əziz Sancar bütün mükafatını bu işə xərcləyib



**Nobel mükafatçısı, türkiyəli alim Əziz Sancar həyat yoldaşı professor Qvin ilə birlikdə ABŞ-da ”Türk Evi” inşa etmək arzusunu gerçəkləşdirib.**

Sosial şəbəkədə yayılan məlumata görə, alim ”Vehbi Koç” mükafatından əldə etdiyi 100 min dollarlıq mükafatı bütünlüklə bu işə sərf edib. ”Mükafatdan qazandığım pul olmasaydı, bu xəyalımı gerçəkləşdirə bilməyəcəkdim. Pul əlimə keçdikdə nə qədər ki, sağam, həyatdayıq, ən böyük arzumuzu gerçəkləşdirməyə başladıq. 100 min dolların üzərinə özümüz də 100 min dollar əlavə etdik və bu evi 660 min dollar aldıq” söyləyən Əziz Sancar deyib ki, ”Türk Evi” 2008-ci ildə açılıb. Bu, 2 mərtəbəli evdir və burada 18 tələbənin qala biləcəyi otaqlar var. Böyük salonu, mətbəxi var. Mətbəxdə türk xanımları yeməklər hazırlayır, həm türk tələbələrə, həm də amerikalılara türk mətbəxinin yeməklərini təqdim edirlər. Salondan isə mədəni tədbirlər zamanı istifadə edirlər. Keçirilən tədbirlər amerikalıların marağına səbəb olur.

**Məlahət**

## Sağılmasın deyə inək özünü yuxuluğa vurdu



**İngiltərədəki fermalardan birində özünü yuxuluğa vuran inək sosial medianın sevimlisinə çevrilib.**

”Doris” adlı inək sahibinin də sevimlisidir. Təsərrüfatın sahibi Con Brodi Dorislə çəkilən videoları sosial şəbəkədə paylaşır və milyonlarla izləyici onların dostluğuna şahid olur.

Con Brodi deyir ki, sağmaq üçün Dorisə yaxınlaşdığında da bəzən inək özünü yuxuluğa vurur, guya ki, yatır. Con bunu anlayır, lakin israr etmir: ”Doris mükəmməldir. O, bir inəkdən daha çox insandır. Süd vermək istəmirsə, özünü yuxuluğa vurur, ona yaxınlaşdığımda özünü yatmış kimi göstərir, mən də israr etmirəm. 200 inəyim var, Doris tamam başqadır”. Conun çəkdiyi video sosial şəbəkədə paylaşıldıqdan sonra Doris ABŞ-də də məşhurlaşıb. Dorisin sahibi ilə birlikdə fotoları ABŞ mediasında da yayılmağa başlayıb. Tiktokda isə Doris 1,5 milyondan artıq görüntülənib. CNN kanalı xüsusi olaraq Dorislə bağlı videosüjet hazırlayıb.

**Məlahət**



# Mobil telefonun "atası" danışdı

## “Bunlar dəlidi, nədi?!”





**50 il əvvəl - 1973-cü ildə ilk mobil telefon - cib telefonu icad etmiş amerikalı mühəndis Martin Cooper ”ekranomaniya” - gözlərini telefon spensorundan ayırmayanları ”dəli” hesab etdiyini deyib: "Küçədə getdiyi halda gözünü telefondan ayırmayanlar ağıllarını itiriblər. Gözlərini telefondan ayırıb gerçək dünyada yaşasınlar”.**

”Şərq” ”NTV.com.tr”yə istinadən bildirir ki, 50 il öncə ilk cib telefonunu yaradan M.Cooper insanların smartfon aludəliyindən sarsıldığını söyləyib. Alim xüsusilə gəncləri telefon ekranına aludəçilikdən uzaqlaşmağı məsləhət görüb. ”Görürəm ki, gənclər mobil telefonlara çox bağlanıb. Telefona aludə vəziyyətdə baş alıb gedirlər. Bir az gözlərini telefon ekranından ayırsınlar, ətrafa nəzər salsınlar, real həyata baxsınlar”, söyləyən alim telefonu icad etməsindən də danışıb: ”Nyu-Yorkun 6-cı prospektində addımlayırdım. Cib telefonu ilə rəqibim Coul Enkeli aradım. Ona ”sənə ilk mobil telefonla zəng edirəm”, dedim. Səsi çıxmadı, yəqin ki, dodaqlarını gəmirirdi. İlk mobil telefon 1 kiloqramdan bir qədər ağır çəkidə idi. Batareyası isə cəmi 35 dəqiqə enerji saxlayırdı. Amma problem yoxdu. Kimsə 1 kiloqramdan artıq telefonu yarım saatdan artıq əlində daşımayacaqdı”.

> *"Küçədə getdiyi halda gözünü telefondan ayırmayanlar ağıllarını itiriblər"*

M.Cooper bu ilk mobil telefonun sonrakı nəsil telefonlar, smartfonlar, ”ağıllı telefonlar” üçün nümunə olduğunu, sonrakıların onun üzərində inkişaf etdirilərək təkmilləşdiyini deyib. Alim sadəcə, hazırda az qala hər kəsin smartfon aludəçiliyindən narahat olduğunu dilə gətirib: ”Bir gün hər kəsin cib telefonu olacağını bilirdim. Amma insanların ”ağıllı telefon” aludəçiliyinə üzülürəm. Telefonlar ağıllıdır, onları təkmilləşdirənlər də. İnsanlarsa ağıllı görünmür. Smartfonlara bu qədər aludə olmaq dəlilikdir”. Alim deyib ki, özü də ”ağıllı telefon”dan istifadə edir, lakin ağlını qaçıracaq dərəcədə deyil. M.Cooper gələcəkdə mobil telefonların hətta xəstəliklərin qarşısını alacağını da bildirib.

**Məlahət Rzayeva**



# Ayaqları çarpazlayıb oturmaq çox ziyandır

## Həkimlər hər kəsə xəbərdarlıq edir



**Əksər xanımlar, həmçinin kişilər də ”aşırma ayaq” əyləşməyə meyillidir. İş yerində, nəqliyyatda, hətta evdə də divanda, kresloda əyləşərkən insanlar bir ayağını digərinin üzərinə aşırıb oturmağı xoşlayır.**

Buna vərdiş edənlər də var, sadəcə, dəbli görünmək xətrinə bu cür əyləşənlər də. Həkimlər isə xəbərdarlıq edir ki, bu cür oturuş tərzi sağlamlığa çox ziyanlıdır. ”Haber türk”də yayımlanan məlumata görə, Lancaster Universitetinin klinik anatomiya tədris mərkəzinin direktoru professor Adam Taylor ayağı ayaq üzərinə aşırıb əyləşməyin niyə ziyanlı olduğunu izah edib. Professor bildirib ki, bu cür əyləşmək vərdişi orqanizmdə uzunmüddətli mənfi təsirlər yarada bilər. Professor bu cür əyləşmə tərzinin iki üsulunu göstərib: ya yaq dizdən bükülərək digərinin üzərinə qoyulur, ya da ayaq topuq hissədən digər ayağın dizi üzərinə qoyulur. İnsanların 100-də 62 faizi sağ ayağını sol ayağının üzərinə aşırır, 26 faizi əksinə. Cəmi 12 faiz bu cür əyləşməni bəyənmir. Bu oturuş tərzlərinin hamısı yanlışdır və ziyanlıdır. Bu cür oturuş tərzi kiməsə rahat görünə bilər, lakin orqanizmə mənfi təsirləri qaçılmazdır. Qan təzyiqini qaldırır, hətta spermanın azalmasına da səbəb olur. İnsanın oturuş tərzi bədən üzərində əhəmiyyətli təsirə malikdir: ”Ayaqları bir-birinin üzərinə aşıraraq əyləşmək onurğa sütununda, ümumi bədən skeletində ciddi əyilmələrə səbəb ola bilər. Ayağın bud hissəsinin digər ayağın bud hissəsindən nisbətən hündürdə olması, ombanın doğru şəkillənməsinə mane olur, ombada getdikcə əyrilik artır. Ayağı ayağın üzərinə aşırmaq təkcə onurğa və omba sümüyünün deyil, çiyin sümüklərinin də əyilməsinə səbəb ola bilər. Ayaq ayağın üzərinə aşırıldıqda bədən ağırlıq mərkəzini itirir, boyun sümüklərində də dəyişiklik gedir, nəticədə baş da yerindən oynayır. Həmçinin bardaş quraraq əyləşmək də bədən üçün ziyanlıdır. Bu cür oturuş tərzi də zaman keçdikcə sağ və sol tərəflər arasında əzələ müvazinətinin itirilməsi səbəbiylə zəiflik, gərginlik və hərəkətsizlik yaradır ki, nəticədə boyun, bel, ombanın zədələnməsinə gətirib çıxara, skolyoz (onurğa sütununun əyilməsi) yarada bilər. Ayağı ayağın üzərinə aşırıb əyləşmək qan damarlarının tıxanmasına səbəb ola bilər. Belə vəziyyət qanın damarlarda sərbəst dolaşmasını əngəlləyir və qanın qatılaşmasına, tromboza səbəb olur. Professor ayağı ayaq üzərinə aşırıb əyləşməkdən mümkün qədər uzaqlaşmağı, bu oturuş tərzindən vaz keçməyi tövsiyə edib. Ümumiyyətlə, eyni oturaq vəziyyətdə uzun müddət qalmaq ziyanlıdır. İnsanlar oturuş tərzini tez-tez dəyişməli, oturaq həyat tərzindən aktiv həyat tərzinə keçməlidirlər.

**Məlahət**

## Bütün səfərlərdən imtina etdi

### Prezidentin təyyarəsi sərnişin daşınmasında istifadə olunacaq



**Kolumbiyanın dövlət başçısı Qustavo Petro prezident təyyarəsinin və Hərbi Hava Qüvvələrinin təyyarə parkının iflasa uğrayan ”Viva Air” və ”Ultra Air” aviakompaniyalarının hava limanlarında qalan sərnişinləri daşınması üçün istifadə olunmasına göstəriş verib.**

Azərtac xəbər verir ki, Kolumbiya Prezidenti bu barədə özünün Tviter səhifəsində yazıb.

Qustavo Petro, həmçinin prezident təyyarəsindən böhran şəraitində istifadə olunması üçün bütün səfərlərdən imtina etdiyini bildirib. ”Nəqliyyat Nazirliyi və Mülki Aviasiya İdarəsi ilə birgə aviasiya sahəsində yaranan fövqəladə vəziyyətlə mübarizə aparmaq üçün lazımi tədbirləri nəzərdən keçiririk”, - deyə dövlət başçısı əlavə edib.

Fevralın sonlarında Kolumbiyada aviadaşımaların 15 faizini yerinə yetirən ”Viva Air” kompaniyası iqtisadi problemlər səbəbindən fəaliyyətini dayandırdığını elan edib. Martın 29-da isə ölkə bazarında səkkiz faiz paya sahib olan ”Ultra Air” heç bir xəbərdarlıq etmədən işini dayandırıb. İki aviakompaniyanın bazardan eyni vaxtda çıxması Kolumbiya aeroportlarında xaos yaranmasına səbəb olub.

## Ən güclü maqnit qasırğası başlayıb



**Martın 31-də yeni güclü maqnit qasırğası başlayır. Bizə ən yaxın olan ulduzun tacındakı nəhəng dəlikdən günəş plazmasının axını böyük sürətlə yerə çırpılır.**

”Medicina” xəbər verir ki, alimlərin fikrincə, o, bizim planetdən 20 dəfə böyükdür. Günəş küləyinin sürəti də təsir edir, deməli olar ki, saatda 3.000.000 km. Bu artıq günəşdə tapılan 2- ci böyük ləkədir.

Əvvəlki maqnit qasırğası bir həftə əvvəl ilə fərq etdi və daha da güclü idi. Rusiyanın bir çox bölgəsində şimal qütb işığını təhrik edən bu fenomen işıqlar da bu səbəbdən baş verib. Mütəxəssislər meteohəssas və təzyiq artımlarına dözməyənlərə xəbərdarlıq edir ki, yaxın günlərdə sağlamlıqlarına xüsusi diqqət yetirsinlər. Kifayət qədər yatmaq və stressdən qaçmaq lazımdır.

## Pikenin oğulları ilə olan görüntüsü tənqid olundu



**Məşhur müğənni Şakiranın eks-sevgilisi, ”Barselona”nın keçmiş müdafiəçisi Jerar Pike bu dəfə övladları ilə münasibətinə görə gündəmə gəlib.**

Axşam.az xəbər verir ki, oğulları ilə birgə matç izləməyə gedən Pikenin 90 minlik stadionda Milanı danladığı görüntülər yayılıb. Kadrlarda onun oğluna qışqırdığı və övladının özünü izah etməyə imkan verməDiyi əks olunub.

Görüntülərdən sonra izləyicilər onu sərt tənqid edib.

*Qeyd edək ki, Şakira Pikedən xəyanətə görə ayrılıb. İkili 11 il münasibətdə olub.*

## “Xəzər"in canlı efirinə pələng gətirildi

### Elza Seyidcahan pələng gedənə qədər studiyadan uzaqlaşıb





**Xəzər TV-nin canlı efirində maraqlı anlar yaşanıb. ”Xəzər axşamı” verilişinə Bakı Dövlət Sirkinin əməkdaşları dəvət edilib.**

**İrəliləyən dəqiqələrdə isə canlı efirə pələng gətirilib.**

**Bundan qorxan proqramın qonağı əməkdar artist Elza Seyidcahan pələng gedənə qədər studiyadan uzaqlaşıb.**

**Aparıcı İslam Mehrəliyev də qorxduğunu bildirsə də, Mətanət Əliverdiyeva cəsarəti ilə diqqət çəkib.**

## Aynişan Şri-Lankada fili çimizdirdi



**Əməkdar artist Aybəniz Haşımovanın bloqer qızı Aynişan paylaşımı ilə yenə gündəmə gəlib.**

**Bloqer Şri-Lanka tətili zamanı fil ilə ünsiyyətinin görüntülərini izləyiciləri ilə bölüşüb.**

**Sözügedən kadrlarda Aynişan nəhəng canlıya sığal çəkib, meyvələr yedizdirib, daha sonra isə təlimçi ilə birgə onu çayda təmizləyib.**

## Bu əsər 2 milyona satıldı



**Qalmaqallı, məşhur qraffiti-rəssam Benksinin ”Cəsarət et!” adlı əsəri hərraca çıxarılıb.**

**Axşam.az xəbər verir ki, əsər ilkin dəyərindən üç dəfə baha - 2 milyon 032 min dollara satılıb.**

**Qeyd edək ki, rəsm 2010-cu ildə Britaniyanın ”Exit Through the Gift Shop” qrupu üçün hazırlanıb.**